

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 18 (708) ■ 14 may 2014 www.vergiler.az Qiyməti: 40 qəp.


# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş mərasim keçirilmişdir

*Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 10 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak etmişlər. Tədbirdə Heydər Əliyev Fondunun 10 illik fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilmişdir.*



Mərasimdə nitq söyləyən Prezident İlham Əliyev bildirmişdir ki, Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycan dövlətinin qurucusudur, bizim xilaskarımızdır. O, bir-biri ilə tamamilə ziddiyyət təşkil edən iki dövlət quruluşunda Azərbaycana rəhbərlik etmişdir: «1969-1982-ci və 1993-2003-cü illər Azərbaycan tarixində Heydər Əliyevin rəhbərliyi ilə inkişaf illəri kimi qalacaqdır. İki tamamilə fərqli bir ictimai-siyasi mühitdə Azərbaycan ən yüksək zirvələrə qalxa bilmişdir. Birinci mərhələdə Azərbaycan müstəqil deyildi, başqa ölkənin tərkibində idi. Heydər Əliyevin rəhbərliyi ilə aparılan böyük quruculuq işləri nəticəsində Azərbaycan 12 il ərzində SSRİ-də ən qabaqcıl yerlərə çıxa bilmişdir». Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin hakimiyyətinin ikinci dövrü barədə geniş məlumat vermiş, bildirmişdir ki, 1993-cü ildə xalqın dəstəyi, etimadı və tələbi ilə Heydər Əliyev yenidən Azərbaycanın rəhbəri seçildi: «Bundan sonra ölkəmiz üçün yeni bir dövr başlanmışdır - sabitlik, təhlükəsizlik və inkişaf dövrü. Köklü islahatlar başlanmışdır, dövlətçiliyin əsasları qurulmuşdur, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, cəmiyyətimizin ideoloji əsasları formalaşdırılmışdır, azərbaycançılıq məfkurəsi dövlət ideologiyası kimi qəbul edilmişdir, demokratik inkişaf, insan hüquqları ilə bağlı çox ciddi islahatlar başlamışdır».

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş strategiyanın bu gün davam etdirilməsi nəticəsində Azərbaycan inamla, uğurla inkişaf etdiyini diqqətə çatdırmışdır. «Biz Heydər Əliyevin davamçıları onun siyasi xəttinə sadiqik. Son on il ərzində Azərbaycan bu yolla gedir, Heydər Əliyevin siyasi vəsiyyətinə sadiqdir və ölkəmizin bugünkü reallıqları, bugünkü vəziyyəti bu yolun nə qədər düzgün olmasını əyani şəkildə sübut edir. 2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs vermişdir. Mən isə söz vermişdim ki, bu siyasətə sadiq qalacağam. Bizim verdiyimiz bütün vədlər həyatda öz əksini tapmışdır və 2008-ci ildə yenidən Azərbaycan xalqı öz etimadını göstərmişdir. Ölkəmizin son on il ərzindəki dünya miqyasında iqtisadi sahədə analoqu olmayan inkişafı əlbəttə ki, 2013-cü ildə xalqın seçiminə təsir göstərmişdir».

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin adını daşıyan Fondun fəaliyyəti barədə də danışmışdır: «Fondun 10 il ərzində gördüyü işlər böyükdür. Fond nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir. Bir çox hallarda Fondun təşəbbüsləri bir qədər sonra həm ictimai təşkilatlar, eyni zamanda, dövlət qurumları tərəfindən dəstəklənmiş və bir növ dövlət proqramına çevrilmişdir. Xüsusilə Fondun təşəbbüsü ilə başlanmış «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi bu gün geniş vüsət almışdır və dövlət bu proqrama qoşularaq son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikdirə bilmişdir».

Tədbirdə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva da çıxış edərək Fondun həyata keçirdiyi işlərin mühüm əhəmiyyətindən bəhs etmişdir.

## Paytaxtda Gül bayramı

*Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Heydər Əliyev Sarayının qarşısındakı parkda və sarayın arxasındakı Şəhər Mərkəzi Parkında Gül bayramı keçirilmişdir. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Gül bayramında iştirak etmişlər.*

Paytaxt sakinlərinin, şəhərimizin qonaqlarının sevimli bayramlarından olan Gül bayramı ənənə üzrə ən sevimli istirahət məkanlarından birində baş tutur. Parkda müxtəlif çiçəklərdən gül xalıları, maraqlı kompozisiyalar yığılmışdır. Bakı Şəhər İcra Hakimiyyətinin təşkil etdiyi bu bayramda çiçək və bitkilərdən, yarpaqlardan hazırlanan rəngarəng kompozisiyalar görünüşü və ifadəliyi ilə seçilir, gözəlliyin hədsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradır.



Parkın mərkəzində müstəqil dövlətimizin qurucusu, xalqımızın dahi oğlu, anadan olmasının 91-ci ildönümünü qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin ucalan əzəmətli abidəsi cəlb edir. Abidənin postamenti güllərlə bəzədilmişdir. Xalqımızın ümummilli liderinin abidəsinin ucaldığı parkda Gül bayramının təşkil olunması dahi Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olmaqla yanaşı, həm də paytaxt sakinlərinin xoş istirahətinin təşkili baxımından da gözəl addımdır.

Dövlətimizin başçısı, xanımı və ailə üzvləri parka toplaşan uşaqlarla səmimi söhbət etmiş, xatirə şəkli çəkdirmişlər.

# Azərbaycan-Fransa əlaqələri bütün sahələrdə dinamik inkişaf edir

*Azərbaycana rəsmi səfərə gələn Fransa Respublikasının Prezidenti Fransua Ollandın mayın 12-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

## *Fransa Respublikasının Prezidenti Fransua Olland Azərbaycanda rəsmi səfərdə olmuşdur*



Həmin gün Azərbaycan və Fransa prezidentlərinin təkbətək görüşü olmuşdur. Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir. Fransanın dövlət başçısının ölkəmizə rəsmi səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından önəmi vurğulanmış, əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olunmuşdur. Görüşdə ikitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

Sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış etmişlər. Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycan Fransa ilə əməkdaşlığın bütün sahələrdə inkişafında maraqlıdır: «Əminəm ki, bu səfər Fransa-Azərbaycan dostluq əlaqələrinin inkişafında müsbət rolunu oynayacaqdır və bizim dostluğumuz davam edəcəkdir. Bu gün imzalanan sənədlər bizim bir çox sahələr üzrə gələcək əməkdaşlığımızı müəyyən edir... Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Fransa Prezidentinin Azərbaycana rəsmi səfəri bunu bir daha təsdiqləyir. Mən dəfələrlə Fransada olmuşam və mütəmadi olaraq məsləhətləşmələr aparılır. Bir çox beynəlxalq məsələlər üzrə danışıqlar, məsləhətləşmələr, əlbəttə ki, bizim siyasi əlaqələrimizi daha da gücləndirir... Fransa Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün öz səylərini göstərir. Bu gün təbii ki, bu məsələ ilə bağlı çox geniş fikir mübadiləsi aparılmışdır. Biz ümid edirik ki, bu münaqişə vasitəçilərin köməyi ilə tezliklə öz həllini tapacaq və bölgəyə sülh gələcəkdir».

Fransa Prezidenti Fransua Olland Azərbaycana səfər etməyi arzuladığını, ölkələrimiz arasında əlaqələrin inkişafından razı olduğunu bildirmişdir. O, regionda sülh və sabitlik baxımından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həlli vacibliyini də önə çəkmişdir: «Bu gün atəşkəsin ildönümüdür. Elə münaqişənin özü də 20 ildən artıqdır ki, davam edir. Biz hələ də onun həll variantlarını tapmamışıq. Minsk qrupunda həmsədr olan Fransa məsuliyyət daşıyır. Bu məsuliyyət gərginliyin aradan qaldırılması, etimadın yaradılmasını nəzərdə tutur. Bu gün bu məqsədlə biz Prezident Əliyevlə dialoq apardıq. Bu gün günün ikinci yarısında həmin dialoq Ermənistanda davam etdiriləcəkdir. Fransa münaqişənin mərhələli şəkildə həllinin tapılmasında yardım etməyə hazırdır. Siz burada müəyyən elementləri təsvir etdiniz. Hər iki tərəfdən etimad doğuran tədbirlərin görülməsi vacibdir. Sonra isə uyğun statusun tapılması üçün müvafiq vaxt ayrılmalıdır».

Həmin gün Fransa Respublikasının Prezidenti Fransua Olland və Azərbaycan Prezidenti İlham Əliyev Bakı Fransız Liseyində aparılan tikinti işləri ilə tanış olmuşlar. Dövlət başçılarına liseydə görülən işlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, liseyin 320 yerlik binasının tikintisi üzrə işlərin mühüm hissəsi artıq başa çatmışdır və qalan işlərin də bu ilin sentyabrına qədər yekunlaşdırılması nəzərdə tutulur. Qeyd edilmişdir ki, fransız məktəbinin tədris planı uşaq bağçasından başlayaraq 12 illik ümumi təhsil müəssisəsində tətbiq edilən klassik fransız tədris planı olacaqdır. Tədris proqramı Fransa milli təhsil sisteminin tələblərinə uyğun olaraq fransız dilində aparılacaqdır. Şagirdlərə veriləcək attestat Fransa Milli Təhsil Nazirliyinin standartlarına və tələblərinə uyğun olacaq və nazirlik tərəfindən tanınacaqdır.


2 Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlərin sayı 54-ə çatdı

3 Sosial müavinətlər üçün müraciətlər elektronlaşdırılıb

4 Faiz dərəcələrinin azalması iqtisadiyyatın kreditləşməsinə müsbət təsir göstərir

5 Elektron təhlükəsizliklə bağlı yeni konsepsiya gündəlikdədir

# Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlərin sayı 54-ə çatdı

*Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Vergilər Nazirliyinin ümumilikdə 60 elektron xidmət göstərilməsi nəzərdə tutulmuşdur. Bu xidmətlərin 2012-2103-cü illərdə istifadəyə verilmiş 51 növü üzrə inzibati reqlamentlər «Hüquqi aktların dövlət reyestrin»də elektron variantda dərc edilmişdir.*

Bu günlərdə Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlərin sayının artırılması istiqamətində növbəti addım atılmışdır: «Vergi partnyorluğu Sazişi»nin bağlanması üçün ərizələrin qəbulu», «Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış»ın təqdim edilməsi və «Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi» üzrə elektron xidmətlərin göstərilməsinə başlanılması ilə əlaqədar müvafiq inzibati reqlamentlərin layihələri hazırlanaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılmışdır.

Xatırladaq ki, qanuna əsasən, elektron xidmətlərin istifadəçiləri vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış hüquqi və fiziki şəxslərdir. Xidmət interaktiv qaydada ödənişsiz həyata keçirilir və http://www.e-taxes.gov.az, http://www.e-gov.az, ünvanlarında istifadəçilərə təqdim olunur.

Təqdim olunan yeni xidmətlər barədə ətraflı məlumatı https://www.e-taxes.gov.az və office@taxes.gov.az elektron ünvanından, nazirliyin vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195» Çağrı Mərkəzindən əldə edtmək olar.

# 2014-cü ilin yanvar-aprel aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 2 milyard 650 milyon 404,6 min manat vəsait daxil olmuşdur

*Bu məbləğin 39,8%-i mənfəət vergisinin, 24,7%-i əlavə dəyər vergisinin, 11,6%-i fiziki şəxslərin gəlir vergisinin, 9,4%-i aksizlərin, 14,5%-i isə digər vergilərin payına düşür.*

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 1 milyard 411 milyon 900 min manat vəsait daxil olmuşdur. Yanvar-aprel aylarında respublika üzrə 30 min 131 vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 may 2014-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 564408 təşkil etmişdir.

2014-cü ilin yanvar-aprel ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 91,2% təşkil etmişdir.

**2014-cü ilin yanvar-aprel ayları üzrə vergi daxilolmaları**




# Azərbaycan Respublikası Vergilər Nazirliyi dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən Azərbaycan Respublikası vətəndaşları üçün MÜSABİQƏ ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 2008-ci il 26 sentyabr tarixli əmri ilə təsdiq edilmiş «Sənədlərin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə 05 may 2014-cü il tarixdən 18 may 2014-cü il tarixədək həyata keçirilir. İştirak etmək istəyənlər göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə kod verilir. Namizəd sənədləri qəbul edildikdən üç iş günü ərzində verilmiş kod əsasında ərizəsinin qəbul edilib-edilmədiyi barədə məlumat ala bilər.

Sənədləri qəbul edilən namizədlər 30 may - 2 iyun 2014-cü il tarixlərində imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, Akad. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 03 iyun 2014-cü il tarixdə TQDK-nın müəyyən etdiyi yerdə keçiriləcəkdir.

Namizədlər «Elektron ərizə» formasını doldurmazdan qabaq «Sənədlərin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi qaydaları» ilə tanış olmalı, yalnız bu qaydalarla razı olduqları halda qeydiyyatdan keçməlidirlər. Qeyd olunan qaydalar və digər məlumatlar elektron poçt ünvanı olan namizədlərin elektron poçt ünvanına göndərilir.

Namizədlər elektron ərizə formasının doldurulması və işə qəbulla bağlı suallarla (012) 403-87-52 nömrəli telefonla Vergilər Nazirliyinin inzibati binasının qəbul otağına, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

**Diqqət!** Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar yalnız aşağıda qeyd olunan vakant yerlərdən birinə işə qəbul edilməsi üçün ərizə ilə müraciət edə bilərlər.

Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizəd ərizəsində göstərdiyi vakant yer üzrə vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılır!

| Müsabiqəyə çıxarılan vakant vəzifələrin siyahısı | |
|---|---|
| 4 saylı Ərazi Vergilər İdarəsi (Şamaxı şəhəri) | 2 |
| Audit şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Vergi proqnozları və risklərin təhlili şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| 5 saylı Ərazi Vergilər İdarəsi (Şirvan şəhəri) | 3 |
| Qeydiyyat və uçot şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Vergi ödəyicilərinə xidmət şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Bəyannamələrin kameral yoxlanılması şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| 6 saylı Ərazi Vergilər İdarəsi (Lənkəran şəhəri) | 2 |
| Hüquq şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Vergi ödəyicilərinə xidmət şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| 8 saylı Ərazi Vergilər İdarəsi (Beyləqan şəhəri) | 3 |
| Audit şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Bəyannamələrin kameral yoxlanılması şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Vergi borclarının alınması şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| 10 saylı Ərazi Vergilər İdarəsi (Qəbələ şəhəri) | 1 |
| Vergi borclarının alınması şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| 11 saylı Ərazi Vergilər Departamenti (Yevlax şəhəri) | 2 |
| Vergi ödəyicilərinə xidmət şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Vergi borclarının alınması şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| 13 saylı Ərazi Vergilər İdarəsi (Zaqatala şəhəri) | 1 |
| Qeydiyyat və uçot şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| 14 saylı Ərazi Vergilər İdarəsi (Şəmkir şəhəri) | 2 |
| Vergi borclarının alınması şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Bəyannamələrin kameral yoxlanılması şöbəsi | |
| dövlət vergi müfəttişi | 1 |
| Kəlbəcər Rayon Vergilər Şöbəsi (Gəncə şəhəri) | 1 |
| Vergi ödəyicilərinin məlumatlandırılması üzrə | |
| böyük dövlət vergi müfəttişi | 1 |
| **CƏMİ: 17 yer** | |
| Qeyd: - Vakant yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər. | |

# Çağrı Mərkəzinə daxil olmuş müraciətlərin və göstərilən xidmətlərin statistikası

2014-cü ilin aprel ayında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzində canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən 14 min 418 sual xarakterli müraciət cavablandırılmışdır. Müraciətlər, əsasən, elektron xidmətlər (19%), qeydiyyat (16%), vergi növlərinin tətbiqi (15%), hesabatlar (10%), elektron imza (6%), büdcə, vergi ödəyiciləri və vergi orqanlarının rekvizitləri (5%) və s. barədə olmuşdur.

Canlı rejimdə daxil olan müraciətlərin 95,3%-i (13 min 738) müfəttiş-operatorlar tərəfindən birbaşa cavablandırılmış, 4,7%-i (680) isə araşdırma aparılması üçün müraciət vərəqəsi tərtib edilməklə orta hesabla 1,7 gün ərzində cavablandırılmışdır.

Ay ərzində vergi ödəyiciləri tərəfindən 1322-i dəfə vergi borcu, 811 dəfə isə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə edilmişdir. Göstərilən dövrdə vergi ödəyicilərinə 84 mindən çox mesaj göndərilmişdir ki, onlardan 82 min 641-i qısa mesaj, 1381-i isə ikitərəfli mesaj olmuşdur.

Aprel ayında Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 358 min 427 daxilolma qeydə alınmışdır. Respublika üzrə bəyannamə təqdim etməli olan 183 min 204 vergi ödəyicisindən 96,8%-i bəyannamələri vaxtında vermişdir. Həmin bəyannamələrin 90,3%-i elektron qaydada təqdim edilmişdir.

# AVİS-də «Vergidən yayınma risklərinin idarə edilməsi» menyusu istifadəyə verilmişdir

*Vergilər Nazirliyi tərəfindən həyata keçirilən islahatlar, tətbiq edilən mütərəqqi texnologiyalar səmərəli vergi nəzarətini həyata keçirməyə imkan verir.*

Vergi nəzarətinin daha effektiv şəkildə aparılması, vergi potensialının daha dəqiq müəyyənləşdirilməsi baxımından sahəvi, fəaliyyət növü və digər amillərdən asılı olan məlumatlar əsasında vergidən yayınma risklərinin təhlili vergi sistemində yarana biləcək risklərin müasir idarəetmə alətlərindən istifadə edilməklə qiymətləndirilməsini zəruri edir.

Vergidən yayınma hallarında risklərin qiymətləndirilməsinin beynəlxalq miqyasda daha geniş yayılan və praktiki məsələlərin həllində tətbiq edilən üsulları arasında riyazi statistik xarakteristikalara əsaslanan modellər üstünlük təşkil edir.

Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Vergidən yayınma risklərinə nəzarət idarəsinin Risklərin təhlili şöbəsinin rəisi Elşən Rəhimli qəzetimizə verdiyi açıqlamada bildirmişdir ki, vergidən yayınma risklərini idarə etmək üçün hər bir vergi ödəyicisinin vergidən yayınma riski qiymətləndirilməlidir. Qiymətləndirməni aparmaq üçün vergi ödəyicilərinin eyni tipli göstəriciləri haqqında məlumatlar orta xüsusi çəki əsasında hesablanır. Bununla əlaqədar vergi orqanlarında qeydiyyatda olan bütün vergi ödəyicilərinin risk faktorları üzrə qiymətləndirilməsi üçün Vergilər Nazirliyi tərəfindən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) «Vergidən yayınma risklərinin idarə edilməsi» (Tax Risk Management - TRM) aləti yaradılmışdır. E.Rəhimlinin sözlərinə görə, TRM vergi orqanlarında qeydiyyatda olan bütün vergi ödəyiciləri üzrə risk faktorlarının avtomatik olaraq baza məlumatlarına əsasən yoxlanılmaqla müvafiq ballarla qiymətləndirilməsini, alınan nəticələrin risk səviyyələrinə görə qruplaşdırılmasını həyata keçirir. Vergi ödəyicilərinin iqtisadi fəaliyyətini əks etdirən göstəricilər əsasında 11 risk meyarı müəyyən edilmişdir. Bu meyarlar əsasında mövcud məlumat bazalarındakı göstəricilər nəzarətdən keçirilərək yaranan kənarlaşmalar müəyyən edilən intervallar üzrə avtomatik olaraq müvafiq ballarla qiymətləndirilir.

| Risklər | Risklərin qiymətləndirilməsi üçün alınan nəticələr üzrə müəyyən olunan intervallar | Risk | | |
|---|---|---|---|---|
| | | Balı | Adı | Vergi ödəyicisinin sayı |
| Risk 1 Risk 11 | 0 | 0 | Risk yoxdur | |
| | 0-20% | 1 | Ən kiçik risk | |
| | 20-40% | 2 | Kiçik risk | |
| | 40-60% | 3 | Orta Risk | |
| | 60-80% | 4 | Böyük Risk | |
| | 80-100% | 5 | Ən böyük risk | |

Qeyd edilmişdir ki, bir çox ölkələrdə vergi ödəyicilərinin iqtisadi fəaliyyətləri əvvəlcədən qiymətləndirilməklə yarana biləcək risklərin vaxtında qarşısının alınması üçün istifadə edilən müxtəlif metodlar, o cümlədən «Risklərin əvvəlcədən qiymətləndirilməsi» (Predictive analyses) vergi orqanının fəaliyyətinin hansı qrup vergi ödəyiciləri və hansı metodlarla (vergi nəzarəti tədbirləri və ya digər vasitələrlə) həyata keçirilməsini müəyyən etməyə şərait yaradır.

Hazırda uğurla tətbiq edilən TRM aləti vergidən yayınma risklərini qiymətləndirməklə yanaşı, vergi potensialının tam səfərbər edilməsi istiqamətində vergi orqanları tərəfindən həm məlumatlandırma işlərinin təşkili, həm də vergi nəzarəti tədbirlərinin başlanılması üçün məlumat mənbəyi və mərkəzi baza rolunu oynayacaqdır. TRM alətində müəyyən edilmiş risk təsnifatları üzrə «Ən böyük» risk qrupuna aid edilən vergi ödəyicilərinin sayının minimallaşdırılması nəticə etibarilə vergi daxilolmalarının artım dinamikasına müsbət təsir göstərə bilər.

**Rəşad SADIQOV**

# İstifadəyə yararsız məhsullar məhv edilmişdir

May ayının 6-da Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin əməkdaşları Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin və «Təmiz şəhər» Açıq Səhmdar Cəmiyyətinin (ASC) nümayəndələri ilə birlikdə istifadəyə yararsız, eləcə də aksiz markası ilə markalanmalı olan, lakin markalanmamış və ya saxta aksiz markası ilə markalanmış, həmçinin keyfiyyətsiz tütün və alkoqollu içki məmulatlarının məhv edilməsini həyata keçirmişlər.

Məhkəmə orqanlarının qərarları ilə müsadirə olunmuş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin 7 aprel 2014-ci il tarixli 5549/50 nömrəli rəyinə əsasən istifadəyə yararsız hesab olunmuş 27 min 56 manat dəyərində 2 min 77 ədəd alkoqollu içki və 20 min 575,6 manat dəyərində 9 min 914 qutu tütün məmulatları «Təmiz şəhər» ASC-nin Balaxanı qəsəbəsində yerləşən məişət tullantılarının yandırılması üçün nəzərdə tutulmuş inzibati ərazisində məhv edilmişdir.

# Kənd təsərrüfatının yeni maliyyələşmə mexanizmi

## *Fermerlərin dövlətdən güzəştli vəsaitlər almaq imkanlarının daha da sadələşdirilməsi təklif edilir*

*Qeyri-neft sektorunun ümumi daxili məhsuldakı xüsusi çəkisinin davamlı şəkildə artırılmasına çalışan Azərbaycan hökuməti bu məqsədlə aqrar sektorun inkişafını xüsusi diqqət mərkəzində saxlayır. Rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etməklə daxili bazarı qorumaq, ekoloji təmiz məhsullarla xarici bazarlara çıxmaq imkanları əldə etmək, kənd yerlərinin tarazlaşdırılmış inkişafına nail olmaq bu sahədə yürüdülən siyasətin əsas hədəfləridir.*

Bu hədəflərə çatmaq məqsədilə islahatların davam etdirilməsi respublikanın uzunmüddətli inkişafının strateji istiqamətlərini özündə ehtiva edən «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da dolğun əksini tapmışdır. Konsepsiyada 2020-ci ilədək qeyri-neft sektoru üzrə ümumi daxili məhsulun orta illik artım tempinin 7%-dən çox olması qarşıya məqsəd qoyulub və bu da əsasən aqrar sektorun inkişafı hesabına təmin edilməlidir. Sənəddə qeyri-neft sənayesinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edən sahələr kimi kənd təsərrüfatı məhsullarının emalına xüsusi diqqət yetirilməsi; mövcud aqroemal müəssisələrinin müasir texnologiyaların tətbiqi nəticəsində istehsal güclərinin artırılması və yeni müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi; aqrar sektora kreditlərin verilməsi mexanizmlərinin sadələşdirilməsi; özəl aqroservis xidmətləri şəbəkəsinin genişləndirilməsi; kənd təsərrüfatının sığortalanması mexanizminin təkmilləşdirilməsi nəzərdə tutulur.

Kənd təsərrüfatının dinamik inkişaf etdirilməsi yolu ilə əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatının gerçəkləşdirilməsi təkcə iqtisadi deyil, həm də milli təhlükəsizliklə bağlı strateji məsələdir. Prezident İlham Əliyev «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın yekunları ilə bağlı bu il fevralın 5-də keçirilən konfransda demişdir: «Bu gün Azərbaycan artıq öz kənd təsərrüfatı məhsullarını ixrac edir və gələcəkdə bu daha da böyük rəqəmlərlə ölçüləcəkdir. Ona görə yeni bazarlara çıxışı təmin etmək vacib məsələdir. Bir sözlə, Azərbaycanda ərzaq təhlükəsizliyi 100% daxili istehsal hesabına təmin edilməlidir».

2014-cü ilin birinci rübündə aqrar sektorun inkişafının stimullaşdırılmasına xidmət edən tədbirlər daha da intensivləşmişdir. Ölkə başçısının qanunvericilik təşəbbüsü əsasında kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq olunan vergi güzəştlərinin müddətinin 2014-cü il yanvarın 1-dən daha beş il müddətində uzadılması deyilənləri əyani təsdiq edir. Xatırladaq ki, 2001-ci il yanvar ayının 1-dən qüvvədə olan qanuna əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslər Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquqi şəxslərin mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən, fiziki şəxslər isə əlavə dəyər vergisini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar.



Ölkə başçısının 2014-cü il 16 yanvar tarixli «Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» sərəncamında isə kənd təsərrüfatında yüksək məhsuldarlığın təmin edilməsinin, yerli məhsulların rəqabət qabiliyyətinin artırılmasının, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinə nail olunmasının zəruriliyi bir daha önə çəkilmişdir. Sənəddə məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, məhsulların qəbulu və saxlanması üçün ixtisaslaşdırılmış terminalların və anbarların yaradılması, müvafiq nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülməsi ilə bağlı aidiyyəti dövlət qurumlarına tapşırıqlar verilmişdir. Sənədə əsasən, hazırda beynəlxalq donor təşkilatları ilə birgə «Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyası»nın layihəsi üzərində ciddi iş aparılır.

Ümumilikdə, son illər ölkədə uğurla reallaşdırılan dövlət dəstəyi tədbirləri kənd təsərrüfatı məhsulları istehsalının və ixracının artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. 2003-2013-cü illərdə kənd təsərrüfatı məhsulları istehsalı 3,3 dəfə, o cümlədən meyvətərəvəzin emal məhsullarının ixracı 2,5 dəfə artmışdır.

Hazırda Azərbaycan daxili bazarını ət və ət məhsulları ilə 94%, yumurta ilə 96,5%, süd və süd məhsulları ilə 75%, taxılla 65%, üzümlə 94%, kartofla 98%, bostan məhsulları ilə 100% təmin edir. Respublikamız xarici bazarlara, əsasən, meyvə və giləmeyvə, tərəvəz, şəkər və şəkərdən hazırlanan məhsullar ixrac edir. İdxal - taxıl, bitki yağları, süd və balıq məhsulları üzrədir.

Aqrar sektorda qazanılan nəticələr həm də fermerlərin son illərdə dövlətin güzəştli kreditlərinə çıxış imkanlarının genişlənməsi ilə izah olunur. Sahibkarlığa Kömək Milli Fondu, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi, «Aqrarkredit» ASC fermerlərin kreditlərə olan tələbatının ödənilməsinə çalışır. Məsələn, Sahibkarlığa Kömək Milli Fondu fermerlərin güzəştli kreditlərə ehtiyacını nəzərə alaraq daha səmərəli maliyyələşmə mexanizmi təklif edir. İlkin kapitalı olmayan sahibkarın təklif etdiyi layihə iqtisadi cəhətdən tam əsaslandırıldığı halda, tam olaraq dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilir.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov hesab edir ki, Azərbaycanda aqrar sahənin inkişafı üçün güzəştli kreditlərin verilməsi prosedurunun daha da sadələşdirilməsinə ehtiyac var. Onun fikrincə, güzəştli kreditlərin məbləği artırılmalı, faiz dərəcələri aşağı salınmalı, torpağın girov qoyulması məsələsi həllini tapmalıdır. Bununla yanaşı, komitə sədri kənd təsərrüfatı kreditlərinin sığortalanması vacibliyini də önə çəkib.

İqtisadçı ekspertlər isə fermerlərin kredit ittifaqlarının yaradılmasının zəruriliyini önə çəkirlər. Hesab olunur ki, maliyyə, satış, emal və bu qəbildən olan problemlərin səmərəli həlli üçün belə ittifaqların yaradılmasına ehtiyac var. Azərbaycanda hələ 2000-ci il 2 may tarixdən qüvvədə olan «Kredit ittifaqları haqqında» Qanuna əsasən, kredit ittifaqı mənafe ümumiliyi əsasında könüllü birləşən fiziki şəxslərin və (və ya) kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə yaratdıqları bank olmayan kredit təşkilatıdır. Bu cür ittifaqların yaradılması üçün cəlb olunmuş vəsaitlər aqrar sektorda müxtəlif işlərin maliyyələşdirilməsi, istehsalın genişləndirilməsi məqsədilə istifadə oluna bilər.

**S.MUSTAFAYEV**

# Sosial müavinətlər üçün müraciətlər elektronlaşdırılıb

*Pensiyaçı və sığortaolunanlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması və bu xidmətlərdən daha rahat istifadə edilməsi məqsədilə Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən atılan addımlardan biri də xidmətlərin elektronlaşdırılmasıdır. Bu günlərdə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər üçün müraciətlərin elektron formada təqdim olunmasına imkan yaradılıb.*

«Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi», «Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi», «Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi», «Uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi» və «Dəfn üçün müavinətin ödənilməsi ilə bağlı müraciətin və sənədlərin qəbulu» adları altında xidmətlər artıq «Elektron hökumət» portalı (www.e-gov.az) üzərindən təqdim olunur.

Bu elektron xidmətlərdən istifadə üçün www.e-gov.az internet ünvanında lazım olan elektron xidmət seçilərək müvafiq xanalar doldurulur. Müraciət qəbul edildikdən sonra sığortaedənə bu barədə elektron təsdiqetmə bildirişi göndərilir. DSMF orqanında sığortaedən kimi uçotda olmayan şəxslərə, eləcə də xidmətdən istifadə üçün lazım olan fərdi eyniləşdirmə məlumatları düzgün daxil edilmədikdə və tələb olunan sənədlərin skan olunmuş surətləri təqdim olunmadıqda xidmətin göstərilməsindən imtina edilir.

Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət almaq hüququ ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə şamil edilir. «Elektron hökumət» portalında *«Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi»* elektron xidməti vasitəsilə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlləri elektron formada doldurularaq DSMF-nin departamentləri, rayon (şəhər) şöbələri, Naxçıvan MR Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrinə təqdim edilir. DSMF orqanı tərəfindən müvafiq müavinət məbləğinin ödənişi elektron formada təqdim edilən haqq-hesab cədvəlinə və müavinət təyin edən komissiyanın protokolunun və xəstəlik vərəqələrinin skan edilmiş surətlərinə əsasən həyata keçirilir. Digər müavinətlərin ödənişləri də bu qaydaya müvafiq şəkildə aparılır.

*«Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi»* xidməti vasitəsilə uşaq doğularkən ailəyə qanunvericilikdə müəyyən olunmuş məbləğdə birdəfəlik müavinət verilir. Uşaqlı ana işləmirsə və ya hər hansı bir səbəbdən uşağın anası yoxdursa, müavinət işləyən ataya verilir. İşləyən valideynə müavinət onun iş yeri üzrə uçotda olduğu DSMF orqanı, işləməyən valideynə isə yaşayış yeri üzrə əhalinin sosial müdafiəsi mərkəzləri vasitəsilə ödənilir. Uşaq doğuşuna görə birdəfəlik müavinət müraciət edildikdə verilir və müraciət müddəti məhdudlaşdırılmır. İki və ya daha çox uşaq doğulduqda birdəfəlik müavinət doğulan uşaqların sayına görə verilir.

Müavinət məbləğinin ödənişi DSMF orqanı tərəfindən uşağın anadan olmasına görə müavinətlə bağlı elektron formada təqdim edilən haqq-hesab cədvəlinə və müavinət təyin edən komissiyanın protokolunun və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqan tərəfindən verilmiş doğum haqqında arayışın skan edilmiş surətlərinə əsasən həyata keçirilir.

Hamiləliyə və doğuma görə müavinət almaq hüququ ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə şamil edilir. *Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi* xidməti elektron formada təqdim edilən haqq-hesab cədvəlinə və müavinət təyin edən komissiyanın protokolunun, xəstəlik vərəqələrinin, hamiləliyə və doğuma görə məzuniyyətin verilməsi barədə müəssisənin əmrindən çıxarışın skan olunmuş surətinə əsasən DSMF orqanı tərəfindən müvafiq müavinət məbləğinin ödənişi vasitəsilə həyata keçirilir.

*«Uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi»* xidməti vasitəsilə müvafiq haqq-hesab cədvəlləri elektron formada DSMF orqanlarına təqdim edilir. Yuxarıda qeyd edilən dörd elektron xidmətin hər birinin icra müddəti 5 gündür.

*«Dəfn üçün müavinətin ödənilməsi ilə bağlı müraciətin və sənədlərin qəbulu»* xidməti sığortaolunan və ya əmək pensiyaçısı vəfat etdikdə dəfn üçün müavinətin verilməsini təmin edir. Sığortaolunanlar üzrə dəfn üçün müavinətin məbləği sosial müavinətlərə dair qanunvericiliklə, əmək pensiyaçıları üzrə dəfn üçün müavinətin məbləği əmək pensiyaları haqqında qanunvericiliklə müəyyən edilir. Müavinəti almaq üçün müraciət müddəti məhdudlaşdırılmır.

Vəfat etmiş şəxs eyni zamanda həm sığortaolunan, həm də əmək pensiyaçısı olduqda, dəfn üçün müavinətin biri - məbləği daha böyük olanı ödənilir. Müraciətin icra müddəti iki gündür.

**AYTƏN**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Gəlir vergisi

Fiziki şəxslərin gəlirlərinin vergiyə cəlb olunmasında əsas problemlərdən biri verginin tətbiqindən maksimum iqtisadi səmərənin əldə olunması və sosial ədalətliliyin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin vəhdətinin yaradılmasıdır. Mütəxəssislərin fikrincə, bu problemin həlli nəticəsində vergiyə cəlb edilən gəlirin həcmi xalis gəlirin məbləğinə maksimum yaxın olmalıdır. Müasir dövrdə fiziki şəxslərin gəlir vergisinin fiskal funksiyasının maksimallaşdırılması ilə yanaşı, onun tətbiqində sosial ədalətliliyin təmin edilməsi aktual məsələlərdən biri olaraq qalır. Bu sahədə qoyulmuş məqsədə nail olmaq üçün qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan İsveçin, Fransanın, Danimarkanın təcrübəsi daha çox maraq doğurur.

*Müasir dövrdə fiziki şəxslərin gəlir vergisinin fiskal funksiyasının maksimallaşdırılması ilə yanaşı, onun tətbiqində sosial ədalətliliyin təmin edilməsi aktual məsələlərdən biri olaraq qalır*

İsveçdə gəlir vergisi, onun əldə edilməsi mənbəyinin harada yerləşməsindən asılı olmayaraq, rezident fiziki şəxslər tərəfindən ödənilir. Verginin dərəcəsi dünyada ən yüksək - 57 faiz təşkil edir. Lakin buna baxmayaraq, vergi müntəzəm olaraq ödənilir. Bu da dövlət xərclərinin sosial yönümlülüyü və gəlirlərin səmərəli bölüşdürülməsinin təmin olunması ilə izah edilir. Demək olar ki, yüksək gəlirləri olan fiziki şəxslər vergi ödəməklə onun böyük bir hissəsini itirdikləri halda, təqaüdçülər, tənha valideyinlər isə əksinə, büdcədən daha çox yararlanırlar. İsveçin vergi sistemində həm də gəlirdən müəyyən çıxılmalar nəzərdə tutulur. Belə çıxılmalara icbari tibbi sığorta və pensiya fondlarına ödənilən məbləğlər də daxildir. Qeyd etmək lazımdır ki, vergi inzibatçılığının yüksək səviyyədə təşkil edilməsi nəticəsində hər bir vətəndaş fərdi koda malik olmaqla, öz vergilərini həmin kod üzrə ödəmək imkanına malikdirlər. Vergi bəyannaməsi vergi orqanları tərəfindən tərtib olunmaqla vergi ödəyiciləri tərəfindən təsdiqlənir və yaxud müvafiq məlumatlarla əsaslandırılaraq ona etiraz bildirilir. Bununla yanaşı, İsveç qanunvericiliyində verginin azaldılmasına və gəlirin yayındırılmasına görə olduqca sərt sanksiyalar, cərimələr nəzərdə tutulmuşdur. Eyni zamanda, artıq ödəmələr olduğu halda, o, müvafiq dərəcə ilə hesablanmış faiz məbləğləri ilə birlikdə fiziki şəxslərə qaytarılır.

Fransanın fiziki şəxslərin gəlir vergisi üzrə vergi sistemi dövlətin funksiyalarının sosial sferada həyata keçirilməsi və aztəminatlı əhalinin müdafiəsinin təmin edilməsi üçün gəlirlərin büdcəyə səfərbər olunmasını nəzərdə tutur. Bu ölkənin vergi qanunvericiliyində vergi tutulan gəlirdən müəyyən çıxılmalar da nəzərdə tutulmuşdur. Bunlara pensiya yaşına çatmış valideynlərin saxlanmasına, xeyriyyəçiliyə, evin mühafizəsinə, uşaqların təhsilinə və sair məqsədlərə çəkilən xərclər aiddir.

Danimarkada gəlirin növündən asılı olaraq (şəxsi gəlir, kapitaldan gəlir, səhmlərdən gəlir və s.), gəlir vergisinin diferensial dərəcələri tətbiq olunur. Şəxsi gəlirlərə əməkhaqqı, qaytarılmış vergi məbləği, pulsuz verilən mənzilin dəyəri, təqaüd, sahibkarlıq fəaliyyətindən əldə olunan xalis gəlir aid edilir. Bu ölkədə gəlir vergisi il ərzində cari ödəmələr aparılmaqla ödənilir. İl bitdikdən sonra artıq ödənilmiş məbləğlər 4 faiz dərəcə ilə faiz məbləği hesablanmaqla vergi ödəyicilərinə qaytarılır. Vergi az ödənildiyi təqdirdə isə ödənilməmiş vergi məbləğinin 9 faizi qədər aylıq peniya hesablanır. Ümumiyyətlə, Danimarkanın vergi sistemi yüksək dərəcələrin olması ilə fərqlənsə də, vergi inzibatçılığının səmərəliliyi nəticəsində vergitutmanın fiskal və tənzimləyici funksiyalarının yerinə yetirilməsi təmin edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində sosial ədalətliliyin təmin edilməsi məqsədilə fiziki şəxslərin gəlir vergisinin (faiz, dividend və icarə haqqından tutulan vergi istisna olmaqla) dərəcəsinin proqressiv şkala üzrə tətbiq olunması nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, Məcəllənin qüvvəyə mindiyi vaxtdan başlayaraq vergi yükünün azaldılması və əhalinin sosial təminatının gücləndirilməsi üçün gəlir vergisinin yuxarı dərəcəsinin aşağı salınması, gəlirin aşağı dərəcə ilə vergiyə cəlb olunan həddinin artırılması üzrə Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilmişdir. Hazırda fiziki şəxslərin aylıq gəlirinin 2500 manata qədər olan hissəsi 14%, 2500 manatdan artıq olan hissəsi isə 25% dərəcə ilə gəlir vergisinə cəlb olunur. Qeyri-sahibkarlıq fəaliyyətindən il ərzində əldə olunmuş gəlirin (dividend, faiz gəliri, icarə haqqından gəlir və xüsusi notariusun gəliri istisna olmaqla) 30000 manatadək hissəsindən 14%, 30000 manatdan çox olan hissəsindən 25% dərəcə ilə vergi tutulur. Divdend və faiz gəliri ödəmə mənbəyində 10%, fiziki şəxsin aldığı icarə haqqı 14%, xüsusi notariusun gəliri 10% dərəcə ilə vergiyə cəlb edilir.

Gəlir vergisinin mahiyyəti, onun sosial sferaya təsiri nəzərə alınmaqla, bu verginin inkişaf etdirilməsi sahəsində yaşayış səviyyəsi daha yüksək olan ölkələrin təcrübəsinin öyrənilməsi önəmli hesab edilir. Eyni zamanda, müxtəlif ölkələrin xüsusiyyətləri nəzərə alınmaqla onlarda tətbiq edilən gəlir vergisinin özünəməxsus əlamətlərinin nəzərə alınması vacibdir. Gəlir vergisinin ailənin məcmu gəliri əsasında hesablanması və bu zaman ailənin hər bir üzvünün fərdi istehlakının nəzərə alınması maraq doğuran məsələlərdəndir. Xarici ölkələrdə tətbiq olunan gəlir vergisinin zəruri elementlərinin Azərbaycanda da tətbiqi mümkündür. Bunlara isə vergi qanunvericiliyində müvafiq dəyişikliklərin mərhələlərlə həyata keçirilməsi nəticəsində nail oluna bilər.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Hüquqi şəxsin ləğv edilməsi

***Hüquqi şəxsin ləğv prosesində olması barədə məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi üçün ləğvetmə komissiyası (təsviyəçi) tərəfindən ərizə ilə müvafiq dövlət orqanına müraciət edilməməsi hansı məsuliyyətə səbəb olur?***

Hüquqi şəxsin ləğv prosesində olması barədə məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi üçün ləğvetmə komissiyası (təsviyəçi) təyin olunduğu gündən sonra 15 gün müddətində ərizə ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına (müvafiq vergi orqanına) müraciət edilməməsi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 200-3-cü maddəsinə əsasən, inzibati cərimənin tətbiqinə səbəb olur.

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununun (Qanun) 9.1-ci maddəsində göstərilir ki, hüquqi şəxslərin, xarici hüquqi şəxsin nümayəndəlik və ya filiallarının təsis sənədlərinə edilən hər bir dəyişiklik, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi qeydiyyata alınmalıdır. Qanunun 16.1-ci maddəsinə əsasən, hüquqi şəxsin ləğv prosesində olması barədə məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi üçün ləğvetmə komissiyası (təsviyəçi) təyin olunduğu gündən sonra 15 gün müddətində ərizə ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir.

Bununla yanaşı, Qanunun 12.8.1-ci maddəsinə əsasən, hüquqi şəxslərin, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının təşkili, qeydiyyatı, yenidən təşkili, ləğv edilməsi barədə məlumatlar dövlət reyestrinə daxil edilməli məlumatlar hesab olunur.

Eyni zamanda, Qanunun 14.1.7-ci maddəsində nəzərdə tutulur ki, dövlət reyestrində aparılan yazıda qurumun hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri barədə məlumatlar əks etdirilməlidir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 60.4-cü maddəsinə əsasən, ləğvetmə komissiyasının (təsviyəçinin) təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 200-3-cü maddəsinə görə, hüquqi şəxslərin, habelə xarici dövlətlərin hüquqi şəxslərinin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin təsis sənədlərində edilmiş dəyişikliklərin və bu qurumlara dair qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınması üçün «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə və qaydada müvafiq icra hakimiyyəti orqanına müraciət olunmamasına görə vəzifəli şəxslər min manatdan iki min manatadək, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya s.musayeva@taxes.gov.az elektron poçt ünvanına göndərə bilərsiniz.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin birinci rübündə Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi **9,7 milyard dollar** təşkil etmişdir: ixracın həcmi **8 milyard dollar**, idxalın həcmi **1,7 milyard dollar** olmuş, nəticədə **6,3 milyard dollarlıq** müsbət saldo yaranmışdır.
- 2014-cü ilin ilk üç ayında qeyri-neft məhsullarının ixracı **380,3 milyon dollar** təşkil etmişdir.
- Rüb ərzində Azərbaycan Respublikasının rezidentləri **116** ölkənin hüquqi və fiziki şəxsləri ilə ticarət əməliyyatları həyata keçirmişlər.
- Cari ilin birinci rübündə **69** ölkəyə əmtəə ixrac olunmuş, **112** ölkədən isə idxal edilmişdir.

**«Universal Çağrı Mərkəzi» üçün loqotip və şüar müsabiqəsinin**

**ELANI**

Azərbaycan Respublikası Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət sahələrini əhatə edəcək «Sahibkarlıq fəaliyyəti sahəsində Universal telefon məlumat xidməti - Çağrı Mərkəzi» barədə Vergilər Nazirliyi tərəfindən müsabiqə elan edilir.

**Müsabiqənin mövzuları:**
- «Universal Çağrı Mərkəzi» loqotipi üzrə;
- «Universal Çağrı Mərkəzi» şüarı üzrə.

**Müsabiqənin tələbləri**
- Müsabiqədə iştirak sərbəstdir;
- Müsabiqəyə hər bir şəxs tərəfindən təqdim edilən loqotip və (və ya) şüar sayına məhdudiyyət qoyulmur;
- Müsabiqə istirakçılarından kreativlik tələb olunur;
- Təqdim olunan loqotip və (və ya) şüar unikal olmalı, hər hansı təşkilatın loqosuna, şüarına və ya devizinə, marka və ya nişanına bənzəməməlidir;
- Plagiat hesab olunan loqotip və (və ya) şüar müsabiqəyə qəbul edilməyəcəkdir.

**Müsabiqəyə təqdim olunan loqotipin aşağıdakı şərtlər daxilində göndərilməsi tövsiyə olunur (loqotipin başqa formatda, ölçüdə göndərilməsinə məhdudiyyət qoyulmur):**
- Loqotipin PNG, TIFF, CDR, PSP, AI, EPS, WMF formatlarından birində olması;
- Loqotipin ölçüsünün 300dpi və daha çox olması;
- Loqotipin rəngli və monoxrom variantda təqdim olunması.

**Müsabiqəyə təqdim olunan şüarın aşağıdakı şərtlər daxilində göndərilməsi tövsiyə olunur (şüarın bir neçə sözdən ibarət olmasına məhdudiyyət qoyulmur):**
- Azərbaycan dilində olması;
- Üç sözdən artıq olmaması.

2014-cü il mayın 6-dan 26-dək davam edəcək müsabiqəyə təqdim edilmiş ən maraqlı, kreativ və «Universal Çağrı Mərkəzi»nin fəaliyyətinə uyğun loqotip və şüarların ən yaxşısı seçiləcək onların müəllifləri mükafatlandırılacaq:
- Loqotip üzrə: «Surface PRO» planşeti ilə;
- Şüar üzrə: «Microsoft Surface RT + Touch Cover» planşeti ilə.

İştirakçılar öz işlərini facebook.com/vergiler - səhifəsinə, həmçinin info@taxes.gov.az ünvanına göndərə bilərlər.

# Faiz dərəcələrinin azalması iqtisadiyyatın kreditləşməsinə müsbət təsir göstərir

*Son illər ölkədə həyata keçirilən pul-kredit siyasətinin əsas hədəflərindən biri də bank sisteminə ictimai etimadın möhkəmləndirilməsi, risklərin minimallaşdırılması, habelə sistem üzrə maliyyə dayanıqlığının artırılmasıdır.*

Makroiqtisadi sabitliyin saxlanmasına xidmət edən bu siyasət həm də kommersiya banklarına likvidlik dəstəyinin göstərilməsi, onların ölkə iqtisadiyyatının kreditləşməsində xüsusi çəkisinin artırılması məqsədinə xidmət edir.

Həyata keçirilən tədbirlər bank sisteminin ölkə iqtisadiyyatındakı lokomotiv rolunun möhkəmləndirilməsinə xidmət edir. «Fitch Ratings» agentliyinin hesabatında vurğulanır ki, Azərbaycan bankları hazırda daha çox pərakəndə kreditləşməyə üstünlük verir ki, bu da korporativ kreditləşmədəki itkiləri kompensasiya etməklə kapitalın rentabelliyini artırır. Agentlik müsbət meyillər sırasında vaxtı keçmiş kreditlərlə bağlı vəziyyətin və kapitallaşma göstəricilərinin yaxşılaşmasını da qeyd edir.

Bankların kredit potensialının gücləndiyini Azərbaycan Mərkəzi Bankının (AMB) statistik hesabatı da təsdiqləyir. Hesabatda bank sisteminin əldə etdiyi uğurlarla yanaşı, kreditlərin ucuzlaşması faktına xüsusi diqqət çəkilir. Qeyd olunur ki, 2014-cü ilin birinci rübündə ölkə banklarının milli və xarici valyutada təklif etdikləri kreditlərin faiz dərəcələri ötən ilin müvafiq dövrünə nisbətən azalıb. Bu dövrdə bank kreditləri üzrə orta faiz dərəcəsi milli valyutada 14,45%, sərbəst dönərli valyutada isə 14,79% təşkil edib. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2013-cü il aprelin 1-də müvafiq olaraq 14,85% və 15,30% idi.

Müsbət tendensiyalardan biri də fiziki şəxslərə milli valyutada təklif edilən bank kreditlərinin orta faiz dərəcəsinin 17,9%-ə enməsidir. 2013-cü ilin birinci rübündə bu göstərici 18,61% təşkil edirdi. Hüquqi şəxslərin bank kreditləşməsi üzrə orta faiz dərəcəsi isə 12,45%-dən 11,57%-ə enib.

Ümumilikdə, 2014-cü ilin birinci rübünün yekunları üzrə ev təsərrüfatlarına verilən kreditlərin həcminin 40,8% təşkil edərək 6 milyard 510,2 milyon manata yüksəlməsi də müsbət göstəricilərdəndir. İkinci yerdə ticarət və xidmət (14,3% və ya 2 milyard 272,8 milyon manat kredit), üçüncü yerdə tikinti və daşınmaz əmlak sahəsi (13,1% və ya 2 milyard 95,9 milyon manat) gəlir.

«Sənaye ili» çərçivəsində ölkədə real sektorun kreditləşməsinin həcmi 11,5% təşkil etməklə 1 milyard 830,6 milyon manata yüksəlib. Nəqliyyat və rabitənin payına 3,6% (579,2 milyon manat), kənd təsərrüfatı və emala 4,7% (741,5 milyon manat), enerji, kimya və təbii resurslara 1,8% (286,9 milyon manat), digər sahələrə isə 10,2% və ya 1 milyard 626 milyon manat kredit düşüb.

İqtisadçı ekspertlərin fikrincə, kreditlərin ucuzlaşmasına təsir göstərən, fiziki və hüquqi şəxslərin daha əlverişli şərtlərlə maliyyə resurslarına çıxışını təmin edən mühüm amillərdən biri AMB-nin uçot dərəcələrini mərhələlərlə aşağı salmasıdır. Rəsmi faiz dərəcəsinin mərhələlərlə aşağı salınması isə kredit resurslarının ucuzlaşmasına və kredit təklifinin artmasına imkan yaradır. 2014-cü ilin müvafiq dövründə AMB uçot dərəcələrini 4,75%-dən 4,25%-ə, faiz dəhlizinin aşağı həddini 1%-dən 0,5%-ə, yuxarı həddini isə 7%-dən 6%-ə endirib.

Nəzərə almaq lazımdır ki, son vaxtlara qədər əksər kommersiya bankları əhaliyə kreditləri ümumdünya maliyyə böhranı zamanı müəyyənləşdirilmiş yüksək faiz dərəcələri ilə təqdim edirdilər. Böhranın ölkə iqtisadiyyatına mənfi təsirlərinin çoxdan geridə qalmasına baxmayaraq, faiz dərəcələrinin belə yüksək həddə qalması - istehlak kreditlərinin əhaliyə 26-32%-lə təklif edilməsi aidiyyəti qurumları, ilk növbədə, AMB-ni adekvat tədbirlər görməyə sövq edirdi.

Təklif olunan kredit faizlərinin yüksək olması bank sisteminin özü üçün də müəyyən risklər yaradırdı. Söhbət son illər problemli kreditlərin həcminin kəskin şəkildə artmasından, bunun bank sisteminin dayanıqlığı və likvidliyi üçün yarada biləcəyi problemlərdən gedir. Vaxtı ötmüş kiçik həcmli istehlak kreditlərinin geri qaytarılması üçün çevik və səmərəli mexanizmlərin olmaması vəziyyəti bir qədər də çətinləşdirir. Bunu nəzərə alan AMB 2014-cü ildə «məsuliyyətli kreditləşmə» prinsipinin tətbiqinə start verərək kredit portfelinin keyfiyyətinin qorunması və yaxşılaşdırılması məqsədilə tədbirləri gücləndirib. Məsələn, bu ilin əvvəlində AMB kommersiya banklarına iş yerindən arayış təqdim etməyən müştərilərə kredit verilməsini qadağan edən təlimat xarakterli məktub göndərib. Bu addım kredit risklərinin tənzimlənməsi, problemli kreditlərin artımının qarşısının alınması məqsədi daşıyır.

Kreditlərin faiz dərəcələrinin aşağı salınmasının vacibliyi həm də ölkə iqtisadiyyatının dinamik inkişaf tempi ilə şərtlənir. Son illər inflyasiyanın təkrəqəmli olması, iqtisadi fəallığın artması kommersiya banklarının mənfəətinin xeyli dərəcədə yüksəlməsinə imkan yaradıb. Bankların depozit cəlb etmək imkanlarının genişlənməsi də faiz dərəcələrinin azalmasına təsir göstərən mühüm amillərdəndir. Kredit resurslarına tələb və təklif arasında optimal balansın təmin edilməsi, rəqabətin güclənməsi, vergi güzəştlərinin tətbiqi kimi amillər də prosesə təsirsiz ötüşmür.

**2014-cü ilin birinci rübü üzrə verilmiş kreditlərin nisbəti**




İqtisadçı ekspert Eldar İsmayılov hesab edir ki, kreditlərin faiz dərəcələrində baş verən azalma real zəminə əsaslanır. Onun fikrincə, ölkə iqtisadiyyatının daha sürətli inkişafının təmin edilməsi baxımından, bankların bu addımı atması vacibdir: «Faiz dərəcəsinin yuxarı olması dövriyyədə olan pul kütləsinin həcminin məhdudlaşdırılmasına və investisiyaların həcminin ixtisarına gətirib çıxaran amillərdən sayılır. Faiz dərəcəsi nə qədər aşağı olarsa, iş adamları üçün mənfəətlə investisiya etmək imkanları bir o qədər yüksək olar. Son illər ölkədə həyata keçirilən pul-kredit siyasəti də faiz dərəcələrinin aşağı düşməsinə, iqtisadiyyatın real sektoruna yönəldilən kapitalın artımına şərait yaradıb».

**Samir MUSTAFAYEV**

# Elektron sənədləşmə ilə bağlı yeni imkanlar

*Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) elektron sənədlərin onlayn imzalanması üçün proqram məhsulunun tətbiqinə başlayıb.*

Yeni proqrama əsasən, elektron sənədlərin imzalanması ilə bağlı əməliyyat sistemi xeyli sadələşdirilib. İndiyədək e-sənəd üçün təklif edilən mövcud «E-imzalayıcı» proqramı yalnız «Windows» əməliyyat sistemində işlədiyindən digər əməliyyat sistemlərindən istifadə edənlərə problemlər yaradırdı. Bunu nəzərə alan RYTN-in mütəxəssisləri yeni texnologiyalardan istifadə etməklə mövcud «E-imzalayıcı» proqramını yeniləşdiriblər. Yeni əməliyyat sistemləri brauzerdən asılı olmayan, onlayn imzalanma zamanı istifadəçidən minimal əməliyyat icrası tələb edən və rahat quruluşa malikdir. Bu proqram məhsulunun mövcud sistemə inteqrasiya olunmaq imkanı var. RYTN-in Məlumat Hesablama Mərkəzinin (MHM) rəhbəri İlqar Abdullayevin sözlərinə görə, yeni proqramın köməyi ilə sənədlərin birbaşa veb üzərindən imzalanması mümkün olmaqla yanaşı, onun istənilən brauzerlərdə və əməliyyat sistemlərində də istifadə edilməsi və elektron sənəd mübadiləsi sistemlərində tətbiq olunması mümkündür. Proqramın hazırlanmasında əsas məqsəd elektron imzanın tətbiqi sahəsinin genişləndirilməsi, elektron sənəd dövriyyəsinin sürətləndirilməsi, «E-hökumət» portalı vasitəsilə istifadəçi sahəsinin böyüdülməsi və əhaliyə daha asan xidmətlərin göstərilməsidir.

İ.Abdullayev qeyd etmişdir ki, Mərkəz e-xidmətlərdən istifadənin genişləndirilməsi və bu xidmətlərə əlçatanlığın təmin edilməsi istiqamətində prosedurların təkmilləşdirilməsini və sadələşdirilməsini davam etdirir. Bir müddət əvvəl e-imza xidmətləri üçün yeni tariflər müəyyənləşdirilib və onun tətbiq sahələrinin daha da genişləndirilməsi üçün müxtəlif istifadəçi əlavələrin hazırlanması istiqamətində işlər davam etdirilir. Artıq «www.e-imza» saytında, e-imzadan istifadə menyusunda «E-şifrləyici» proqram əlavəsi yerləşdirilib. İstifadəçilər bu proqramı öz kompüterlərinə yükləməklə məlumatların açıq açar infrastrukturu vasitəsilə şifrələnməsini və deşifrələnməsini həyata keçirə bilərlər. Məlumatların veb üzərindən onlayn imzalanması servisinin yaxın günlərdə beta versiyası Mərkəzin saytında və «Elektron hökumət» portalında yerləşdiriləcək. Bundan başqa, e-imzadan geniş istifadə məqsədilə elektron sənəd dövriyyəsinin genişləndirilməsi və sənədlərlə elektron formada işi təmin edəcək zəruri sistemlərin (arxivləşdirmə, təhlillər, hesabatlar və s.) qurulması, «Elektron hökumət» portalı çərçivəsində «şəxsi kabinet»in və dövlət orqanlarına vahid müraciət imkanının yaradılması, «mobil hökumət» texnologiyalarının tətbiqi nəzərdə tutulur. Elektron xidmətlərdən istifadə imkanlarının artırılması üçün ictimai çıxış məntəqələri şəbəkəsinin genişləndirilməsi əsas məsələlərdəndir.



**E.CƏFƏRLİ**

# Yeni fəaliyyət planı

## Qarşıdakı 3 il ərzində məşğulluq strategiyası çərçivəsində əmək bazarının canlandırılması məqsədilə planlı tədbirlər həyata keçiriləcək

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ölkədə sosial müdafiə tədbirlərinin gücləndirilməsi, vətəndaşların əmək hüquqlarının qorunması, əhalinin sosial müdafiəsi ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi, bu sahədə səmərəli dünya təcrübəsinin tətbiq edilməsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı yeni prioritetləri müəyyən edib.*

ƏƏSMN-nin Məşğulluq siyasəti və əmək bazarının tənzimlənməsi şöbəsinin müdiri Vahab Məmmədovun sözlərinə görə, yeni məşğulluq strategiyasına əsasən, neft gəlirlərinin, iqtisadi sahələrlə yanaşı, sosial sektorlara və insan kapitalının inkişafına yönəldilməsi, insan amilinin inkişafına yönəldilmiş investisiyaların cəlb edilməsi üçün imkanların müəyyənləşdirilməsi də əsas hədəflər sırasındadır.

Bu tədbirlərə uyğun olaraq regionların investisiya cəlbediciliyinin artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi, bölgələrin iqtisadi xüsusiyyətlərinə uyğun yeni istehsal və emal müəssisələrinin yaradılması və fəaliyyətini dayandırmış müəssisələrin bərpası ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

2015-ci ilə kimi işsizlərin sosial müdafiəsinin gücləndirilməsi üçün xüsusi tədbirlərin həyata keçirilməsi, onların kiçik sahibkarlıqla məşğul olmalarına şəraitin yaradılması nəzərdə tutulur. Əmək bazarına nəzarət sisteminin gücləndirilməsi məqsədilə qarşıdakı üç ildə milli informasiya sistemi yaradılacaq, əmək bazarında yaranan vəziyyətin monitorinqi və təhlili sistemi qurulacaq, qeyri-formal məşğulluğun qarşısının alınması üzrə ciddi tədbirlər görüləcəkdir. Strategiya əhalinin məşğulluğunun inkişafına təsir edən investisiya mühitinin yaradılmasına, vergi, gömrük, təhsil və digər müvafiq sahələrlə bağlı siyasətin təkmilləşdirilməsinə, yeni iş yerlərinin açılmasını stimullaşdıran institusional mühitin formalaşmasına yönəldilən siyasi prioritetləri müəyyən edir.

2014-2017-ci illərdə əmək bazarında həyata keçirilməsi nəzərdə tutulan digər tədbirlər regionlarda iqtisadi fəallığın yüksəldilməsi, təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması, qeyri-formal məşğulluğun qarşısının alınması, işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsi, sahibkarlığın, kiçik və orta biznesin inkişafı, eləcə də fərdi əmək fəaliyyəti ilə məşğul olanların (xüsusilə də əmək bazarında gərginlik olan ərazilərdə) iqtisadi həvəsləndirilməsi kimi vəzifələri əhatə edəcək. İqtisadiyyatın inkişafından asılı olaraq minimum əməkhaqqının mərhələli artımının həyata keçirilməsi, məşğulluq və işsizlik səviyyəsinin real vəziyyətinin qiymətləndirilməsi üzrə tədbirlərin davam etdirilməsi, əmək qanunvericiliyinə riayət olunmasına nəzarətin təmin edilməsi də fəaliyyət planının başlıca məqsədlərindəndir.

ƏƏSMN əmək şəraiti və əməyin ödənilməsi, müasir tələblərə cavab verən iş yerlərinin yaradılması, mövcud iş yerlərinin səmərəliliyinin artırılması, əhalinin məşğulluğunun artırılması sahəsində tədbirlərin sosial tərəfdaşlıq prinsipi əsasında qurulması məqsədilə sosial və iqtisadi məsələlər üzrə daimi fəaliyyət göstərən üçtərəfli komissiyanın yaradılması üçün tədbirlərin həyata keçirilməsini də nəzərdə tutur.

*2014-2017-ci illərdə əmək bazarında həyata keçirilməsi nəzərdə tutulan digər tədbirlər regionlarda iqtisadi fəallığın yüksəldilməsinə xidmət edəcək*

Əmək bazarına nəzarətin əsas formalarından olan əmək müqavilələrinin imzalanmasının daha geniş sosial qrupları əhatə etməsi üçün Avropanın qabaqcıl sosial modellərinin ölkəmizdə tətbiqi də istisna deyil.

**E.CƏFƏRLİ**


Azərbaycan Mətbuat Şurası — MŞ — Azerbaijan Press Council

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ — «Vergilər» qəzeti

## Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə təşkil etdiyi «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin

## ELANI

Müsabiqənin məqsədi ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müasir vergi sistemi ilə bağlı yeniliklərin və məlumatların cəmiyyətə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

***Müsabiqənin mövzuları:***
- Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti;
- Vergi Partyorluğu Sazişi: qarşılıqlı inam və etimad körpüsü;
- Əmək müqaviləsi: gələcəyin təminatı.

***Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması***

Müsabiqəyə hər üç istiqamət üzrə təqdim edilmiş yazıların mükafatlandırılması nəzərdə tutulur.

➔ I yer (3) - 800 manat
➔ II yer (3) - 500 manat
➔ III yer (3) - 300 manat

Bundan əlavə, 10 ən yaxşı yazı müəllifinə həvəsləndirici mükafatlar veriləcəkdir. Qaliblər Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin xüsusi diplomları ilə təltif olunacaqlar.

***Müsabiqədə iştirak***

Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, televiziya və informasiya agentliklərində) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

***Müsabiqəyə təqdim olunan yazılara aid tələblər***

1. Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər.
2. Yazı son bir ildə həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi «qara siyahı»ya düşməyən mətbuat orqanlarında dərc edilməlidir.
3. Yazıda «Vergilər Nazirliyinin «Vergilər» qəzetinin və Azərbaycan Mətbuat Şurasının keçirdiyi müsabiqəyə təqdim etmək üçün» qeydi göstərilməlidir.

***Yazıların qəbulu şərtləri***

1. Yazının dərc olunduğu mətbuat orqanı (qəzet, jurnal) - 1 nüsxə.
2. Yazının elektron variantı - CD diskdə. (Əgər yazı internet media resursunda gedibsə, CD diskdə yazının linki də göstərilməlidir).
3. Yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstəril məməlidir) - 3 nüsxə.
4. Yazının həcmi 9-11 min işarə arasında olmalıdır.

***Tələb olunan sənədlər***

1. İşlədiyi KİV tərəfindən müəllifə verilən vəsiqənin surəti.

*Yazıların qəbulu 01 may 2014-cü il tarixdən başlayır, 31 may 2014-cü il tarixdə bitir. Müsabiqənin nəticələri 2014-cü il iyunun 10-dək açıqlanacaqdır.*

*Yazılar rəsmi iş günləri saat 10:00-dan 16:00-dək Azərbaycan Mətbuat Şurasına şəxsən təqdim olunmalıdır (Bakı şəhəri, Teymur Əliyev küç., 38).*

*Əlaqə tel.:*
*(012) 441 35 95; (050) 534 93 26;*
*(055) 201 99 26*

***Qiymətləndirmə meyarları:***
- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- məqalənin oxucu üçün informasiyalılıq səviyyəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti.


# Elektron təhlükəsizliklə bağlı yeni konsepsiya gündəlikdədir

***Hazırda ölkəmizdə «Elektron hökumət» quruculuğunun yeni mərhələyə qədəm qoyması və e-xidmətlərin çeşidinin genişlənməsi, dövlət strukturları ilə yanaşı, özəl sektoru da əhatə etməsi bu sahədə təhlükəsizlik məsələlərinə diqqətin artırılmasını zərurətə çevirir. Xüsusilə son illərdə informasiya resurslarından istifadənin genişlənməsi, yeni informasiya texnologiyalarının tətbiqi elektron təhlükəsizliyin gücləndirilməsini diqqət mərkəzinə gətirir.***



Beynəlxalq Telekommunikasiya İttifaqının hesabatından da göründüyü kimi, son bir ildə müxtəlif ölkələrin informasiya məkanına elektron təhlükələr çoxalıb. Xüsusilə də MDB regionunda informasiya şəbəkələrinə müdaxilə, kiberhücumların geniş xarakter alması müşahidə edilir.

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov bildirib ki, respublikamızda informasiya təhlükəsizliyinin gücləndirilməsinə ciddi ehtiyac var. Ölkəmizdə «Milli Təhlükəsizlik Konsepsiyası və «Milli təhlükəsizlik haqqında» Qanunda informasiya təhlükəsizliyi problemi əsas vəzifə kimi qoyulmur, yalnız ölkənin ümumi milli təhlükəsizliyi fonunda təsnif olunur. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, Azərbaycanda da bu sahə üzrə ayrıca «İnformasiya təhlükəsizliyi Konsepsiyası»nın yaradılmasına ehtiyac var. Həmin konsepsiyada milli informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin hüquqi əsasları müəyyənləşdirilməli, dövlətin informasiya mühitinin təhlükəsizliyinə təhdidlər sistemli qaydada öyrənilərək qruplaşdırılmalı və onun doğura biləcəyi konkret nəticələr proqnozlaşdırılmalıdır. Eyni zamanda, bu sahə üzrə dövlət qurumlarının praktiki fəaliyyətinin effektivliyi də ciddi şəkildə təmin edilməlidir.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) də ölkədə milli informasiya təhlükəsizliyinin gücləndirilməsinə, kiberhücumlardan müdafiənin daha etibarlı şəkildə təmin olunmasına vacib məsələlər kimi yanaşır. Nazirliyin şöbə müdiri İlqar Abdullayevin bildirdiyinə görə, Azərbaycanda elektron xidmətlərin və informasiya texnologiyalarının son modellərinin tətbiqinin genişlənməsi bu sahədə çevik və dinamik idarəetmə ilə yanaşı, etibarlı təhlükəsizlik sisteminin yaradılmasını da zəruri edir. Son dövrlər elektron ödəniş vasitələrinə tələbatın artması bu sistemin təhlükəsizliyini vacib vəzifə kimi qarşıya qoyub. Azərbaycan bu məqsədlə kibertəhlükəsizlik sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı gücləndirib. Respublikamızda kibercinayətkarlıqla mübarizə sahəsində Beynəlxalq Telekommunikasiya İttifaqı ilə yeni əməkdaşlıq planı hazırlanıb. Birgə mübarizə tədbirləri internet resurslarından istifadəyə yeni nəzarət mexanizmlərinin, etibarlı mühafizə sistemlərinin yaradılmasını nəzərdə tutur.

Qeyd olunduğuna görə, ölkəmizdə informasiya ehtiyatlarının qorunması, kibertəhdidlərin qarşısının alınması və dəf edilməsi üzrə RYTN yanında Elektron Təhlükəsizlik Mərkəzi, həmçinin Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi fəaliyyət göstərir. Hər iki qurumun fəaliyyətini koordinasiya etmək, həmçinin ölkədə informasiya resurslarının artdığı bir dövrdə informasiya sistemlərinə nəzarəti gücləndirmək məqsədliə RYTN-ə məxsus DATA mərkəzi yaradılacaq. Mərkəzin fəaliyyəti məlumatların təhlükəsizliyinin təmin edilməsinə, kənardan daxil olan kibertəhdidlərin qarşısının alınmasına, məlumatlar bazasının müdafiəsinin ən yüksək səviyyədə təşkilinə yönəldiləcək.

İ.Abdullayev onu da bildirib ki, ötən ay dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya»da da respublikamızın qarşıdakı ortamüddətli dövrdə İKT sektorunun inkişafı ilə bağlı mühüm prioritetlər müəyyən edilib ki, onlardan biri də e-təhlükəsizlikdir. Bu məqsədlə RYTN-in hazırladığı tədbirlər planına əsasən, Elektron Təhlükəsizlik Mərkəzi ölkəmizin informasiya infrastrukturunu çoxsaylı mənbələrdən gələn kiberhücumlar, qanunsuz müdaxilələr, ziyanverici proqramlar kimi təhdidlərdən qorumaq, təhlükələrə hazırlıq səviyyəsini artırmaq üçün Mərkəzin səmərəli və peşəkar kadr bazasının gücündən istifadə olunacaq. Eyni zamanda, informasiya-telekommunikasiya sistemlərinin və şəbəkələrinin, idarələrarası elektron sənəd dövriyyəsinin, dövlət orqanlarının internet şəbəkəsi ilə əlaqəsinin, onların internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsinin təşkili, təhlükəsizliyi və inkişafı təmin ediləcək.

Elektron təhlükəsizliyin gücləndirilməsi məqsədilə Mərkəzi Bank da müvafiq tədbirlər həyata keçirmək niyyətindədir. Bankdan bildirildiyinə görə, onlayn ödənişlərin, bankomat və internet vasitəsilə həyata keçirilən əməliyyatların, bir sözlə, nağdsız əməliyyatların təhlükəsizliyinin gücləndirilməsi gündəlikdə duran əsas məsələlərdəndir. Xüsusilə də bank kartları vasitəsilə aparılan əməliyyatların e-təhlükəsizliyi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə mövcud müdaxilə hallarının qarşısının alınması məqsədilə infrastruktur imkanlarının artırılması, banklar ilə hüquq-mühafizə orqanları arasında əlaqəli fəaliyyətin təşkil olunması, elektron bankçılıq sahəsində beynəlxalq standartların tətbiqinin sürətləndirilməsi nəzərdə tutulur. Mərkəzi Bank birgə mübarizə tədbirlərini həyata keçirmək üçün kartlarla fırıldaqçılıq sahəsində risklərin idarə olunması üzrə Azərbaycan Banklar Assosiasiyasının, seçilmiş bankların, kart-prosessinq mərkəzlərinin mütəxəssislərindən, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarının əməkdaşlarından ibarət işçi qrup yaradıb.

**Elbrus CƏFƏRLİ**

# «ASAN xidmət» həyatı asanlaşdırır

*Bu günlərdə 4 saylı Bakı «ASAN xidmət» mərkəzinin açılışı oldu və bununla da respublika üzrə «ASAN xidmət» mərkəzlərinin sayı 6-ya çatdı. Yeni «ASAN xidmət» mərkəzi paytaxtın Sabunçu, Xəzər, Pirallahı rayonlarında qeydiyyatda olan 407 min 700 vətəndaşa xidmət göstərəcəkdir.*

10 dövlət orqanı tərəfindən 30 növ xidmət, eləcə də 28 növ funksional yardımçı xidmətlər göstərən Mərkəzdə müasir avadanlıqla təchiz edilmiş «İnnovasiyalar otağı» vardır. Burada gözdən əlillərin sərbəst hərəkəti üçün döşəməyə xüsusi örtüklər vurulub.

Maraqlı yeniliklərdən biri də budur ki, artıq Bakı şəhərinin sakinləri üçün qeydiyyat məhdudiyyəti aradan qaldırılır. Şəhərin hər bir sakini üçün paytaxtda yerləşən istənilən «ASAN xidmət» mərkəzinə müraciət etmək imkanı təmin ediləcək.

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılan «ASAN xidmət» mərkəzləri dövlət orqanlarının hüquqi xidmətlər göstərməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, qulluqçu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılması məqsədi daşıyır.

«ASAN xidmət» mərkəzləri və «səyyar xidmət» üzrə statistikaya görə, 1 saylı Bakı «ASAN xidmət» mərkəzi fəaliyyətdə olduğu 451 gün ərzində 487 min 583 müraciət qəbul edib. Bunlardan 422 min 767-i üzrə xidmət göstərilib. Sumqayıt «ASAN xidmət» mərkəzinə fəaliyyətdə olduğu 340 gün ərzində 515 min 859 müraciət daxil olub, 257 min 125 xidmət göstərilib. 2 saylı Bakı «ASAN xidmət» mərkəzinə 320 gün ərzində 413 min 245 müraciət daxil olub, 346 min 562 xidmət göstərilib. 3 saylı Bakı «ASAN xidmət» mərkəzində 159 gün ərzində 212,63 müraciət daxil olub və 178 min 257 xidmət göstərilib. Gəncə «ASAN xidmət» mərkəzinə fəaliyyətdə olduğu 319 gün ərzində 158 min 623 müraciət daxil olub, 118 min 692 xidmət göstərilib.




«Səyyar xidmət» vasitəsilə 6 məntəqədə 6 rayonun əhalisinə xidmət göstərilib.

**AYTƏN**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Sadələşdirilmiş vergi ödəyicisinin vergi tətbiq olunmayan gəlirləri

Səsləndiyi qədər heç də sadə olmayan sadələşdirilmiş vergi növü üzrə audit zamanı Vergi Məcəlləsinin 220.1-ci maddəsində göstərilən sadələşdirilmiş vergi dərəcələrinin tətbiq edilməli olduğu dövriyyələrin düzgün müəyyənləşdirilməsinə diqqət yetirilməlidir.

Vergi Məcəlləsinin 218.1-ci maddəsinə görə, təsərrüfat subyektləri ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan gəlirləri qanunla müəyyənləşdirilən məhdudlaşdırılmış hədd məbləğini (hazırda 120000 manatı) aşmadığı halda, vergitutma məqsədləri üçün sadələşdirilmiş vergitutma sistemini, yəni Vergi Məcəlləsinin 220.1-ci maddəsi üzrə sadələşdirilmiş vergi dərəcələrini tətbiq edə bilərlər.

Sadələşdirilmiş vergi ödəyicilərinin pul hesablarına müxtəlif əməliyyatlar çərçivəsində pul vəsaitləri, həmçinin mülkiyyətinə müxtəlif istiqamətlərdən maddi əşyalar (əsas vəsaitlər, azqiymətli əşyalar, xammal və materiallat, mallar və digər) daxil ola bilər. Lakin daxil olan vəsaitlər üzrə əməliyyatların xarakteri müxtəlif olduğuna görə, həmin vəsaitlərin içərisindən sadələşdirilmiş vergiyə cəlb olunanların qanunvericiliyin tələbinə uyğun olaraq ayrılmasına aparılan audit zamanı diqqət yetirilməlidir.

Ümumiyyətlə, hər hansı vergiyə cəlb olunan əməliyyatları müəyyənləşdirmək üçün ilk növbədə vergitutma obyektinə nəzər yetirmək lazımdır və bunun üçün də Vergi Məcəlləsində vergitutma obyektinə aid maddənin məzmununun leksik mənalarına fikir verilməlidir.

Məsələn, Vergi Məcəlləsinin 219.1-ci maddəsinə görə, sadələşdirilmiş vergi üzrə vergitutma obyekti iki istiqamətdə axtarılmalıdır:

1. Təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın həcmi.

2. Satışdankənar gəlirlərin həcmi.

«Təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın həcmi» ifadəsində «təqdim edilmiş» dedikdə, keçmiş zamanda qaimə-faktura tərtib edilməklə satılmış mallar, təhvil-təslim aktı tərtib edilməklə göstərilmiş xidmətlər, təhvil-qəbul aktı (forma 2) tərtib edilməklə görülən işlər başa düşülməlidir. Lakin bu ifadədə «əldə edilmiş» dedikdə, təqdim edilmişlərin və ya təqdim edilmişlərə aid edilənlərin içərisindən sadələşdirilmiş vergi ödəyicisinin pul və əşya hesablarına onların əvəzi olaraq faktiki daxil olan vəsaitlərin həcmi başa düşülməlidir. Yəni nə qədər ki, təqdim edilmiş mala (işə, xidmətə) görə hər hansı vəsait əldə edilməmişdirsə (əvəzi alınmamışdırsa), təqdim edilmişlərə görə vergi ödəməkdən söhbət gedə bilməz. Buradan belə aydın olur ki, mühasibat uçotunda 62№-li (və ya 211№-li) hesabın kredit dövriyyəsi sadədləşdirilmiş vergi tətbiq olunan dövriyyə kimi çıxış edir.

**Davamı növbəti sayımızda**

## Göstərilən xidmətlərin keyfiyyətini ödəyicilər qiymətləndirəcək

***Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət mərkəzlərində vergi ödəyicilərinin və vətəndaşların məmnunqalma səviyyəsini ölçmək məqsədilə anket-sorğu keçirilir.***

«Birlikdə daha yaxşı olaq!» adlı sorğu nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az) yerləşdirilmişdir. Anket-sorğunun keçirilməsində məqsəd xidmət mərkəzlərinin fəaliyyətini dəyərləndirmək, müəyyən edilmiş çatışmazlıqları aradan qaldırmaqla göstərilən xidmətlərin keyfiyyətini artırmaqdır. Sorğuda iştirak etmək istəyən şəxslər müraciət etdiyi xidmət mərkəzini, hüquqi statusunu, ona göstərilən xidmətin növünü, hansı müddətdən bir xidmət mərkəzinə müraciət etdiyini seçir və mərkəzin işini ümumi olaraq 5 ballıq sistemlə qiymətləndirir. Eyni zamanda, iştirakçılar mərkəzdə göstərilən xidmətlərin təkmilləşdirilməsi üçün öz təkliflərini də qeyd edə bilərlər.

Sorğuda iştirak edən şəxsə xidmət mərkəzinin fəaliyyətinin işini ümumi qiymətləndirdikdən sonra ona niyə bu qənaətə gəldiyini bilmək üçün əlavə sualların cavablandırılması da təklif olunur.




# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**5-ci MƏRHƏLƏ**

***Maliyyə hesabatlarının hazırlanması***

Hörmətli oxucular, qəzetin əvvəlki saylarında dərc olunan izahlarda qeyd edildi ki, mühasib hazırladığı sınaq balansı əsasında ilk olaraq mənfəət və zərər haqqında hesabatı tərtib etməlidir. Çünki ilkin hazırlanmış sınaq balansında məlum olmayan xalis (bölüşdürülməmiş) mənfəət və mənfəət vergisi göstəriciləri ilk olaraq məlum olmalıdır ki, tapılan bu göstəricilər digər maliyyə hesabatlarının hazırlanmasında istifadə olunsun. Mənfəət və zərər haqqında hesabat hazırlandıqdan sonra sınaq balansında məlum olmayan bu iki göstərici 9344 manat mənfəət vergisinin məbləği və 37376 manat xalis mənfəətin məbləği olduğu müəyyənləşdirildi. Mənfəət və zərər haqqında hesabat hazırlandıqdan sonra bunun davamı olaraq kapitalda dəyişikliklər haqqında hesabatın hazırlanması (tərtib olunması) qaydası qəzetin 30.04.2014-cü il tarixli 16 (706)-cı sayında dərc edilmişdir.

Kapitalda dəyişikliklər haqqında hesabat hazırlandıqdan sonra bunun davamı olaraq mühasibat balansı hazırlanır. Mühasibat balansı ilkin hazırlanmış sınaq balansının, mənfəət və zərər haqqında hesabatın və kapitalda dəyişikliklər haqqında hesabatın göstəriciləri əsasında tərtib olunur.

Bu halda bizim misal üzrə obyektin mühasibat balansı aşağıdakı kimi olacaqdır (hesabatın «qeydlər» hissəsinin göstəriciləri qəzetin gələcək saylarında izahlı şəkildə veriləcəkdir) (bax cədvələ).

Mühasibat balansının tərtib olunması haqqında açıqlanmış izahlar qəzetin növbəti sayında dərc ediləcəkdir.

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**Mühasibat balansı**
*«31» yanvar 2014-cü il tarixinə*

| Bölümün, maddənin №-si | Göstəricilər | Qeydlər | 31.01. 2014 | 31.12. 2013 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | | 72500 | 20000 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınan | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **72500** | **20000** |
| **2** | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | | 145650 | 34000 |
| 21 | Qısanmüddətli debitor borcları | | 103400 | 40000 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | | 88780 | 27000 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | |
| 24 | Sair qısamüddətli aktivlər | | | |
| | **Cəmi qısamüddətli aktivlər** | | **337830** | **101000** |
| | **Cəmi aktivlər** | | **410330** | **121000** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **3** | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | | 70000 | 40000 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 37376 | |
| | **Cəmi kapital** | | **107376** | **40000** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | | |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | 80000 | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | 12444 | 400 |
| 53 | Qısanmüddətli kreditor borcları | | 210510 | 80600 |
| 54 | Sair qısamüddətli öhdəliklər | | | |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | **302954** | **81000** |
| | **Cəmi öhdəliklər** | | **302954** | **81000** |
| | **Cəmi kapital və öhdəliklər** | | **410330** | **121000** |

## vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | **4** |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | **11** |
| 12 | 13 | 14 | **15** | 16 | 17 | **18** |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | **25** |
| 26 | 27 | **28** | 29 | 30 | 31 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 may - «(5)» və «6».
20 may - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlə büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayınınn 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməlidirlər.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

*Sahibkar Eldar Şahgəldiyevin təsis etdiyi «Esko-kama» MMC-nin əsas fəaliyyəti kompüter və kompüter avadanlıqlarının satışı, kommunikasiya texnologiyaları üzrə xidmətlər göstərmək idi. Az müddətdə müəssisə xeyli müştəri də toplaya bilmişdi. Sifarişçilər arasında müxtəlif dövlət təşkilatları, idarələr və ali təhsil ocaqları üstünlük təşkil edirdi. Lakin sahibkar elə ilk vaxtlardan etibarən vergidən yayınmaq üçün müxtəlif vasitələrə əl atıb.*

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşlarının apardıqları yoxlamalar zamanı «Esko-kama» MMC-də 2601,20 manat məbləğində sadələşdirilmiş verginin dövlət büdcəsinə ödənilməkdən yayındırıldığı aşkar olunub və E.Şahgəldiyev barəsində Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə cinayət işi başlanılıb. Aparılan istintaq hərəkətləri nəticəsində onun digər vergi cinayətlərində də iştirakı müəyyən edilib. Aşkar olunub ki, E.Şahgəldiyev «Lazer-E» MMC adlı müəssisənin də sahibi kimi uzun müddət fəaliyyət göstərib və işlədiyi dövrdə vergilərin böyük hissəsini dövriyyədən gizlədib. Təhqiqat nəticəsində «Lazer-E» MMC-nin fəaliyyəti üzrə 2196,69 manat məbləğində sadələşdirilmiş verginin yayındırması faktı təsdiq olunub. Ümumilikdə, E.Şahgəldiyevin vergidən yayındırdığı məbləğ 4797,89 manat təşkil edib.

Beləliklə, sahibkarın haqqında açılmış cinayət işləri bir icraatda birləşdirilib. O, istintaqa verdiyi ifadəsində «Lazer-E» və «Esko Kama» MMC-nin ciddi hesabat və maliyyə sənədləri, möhür, künc ştampı və vergi orqanı tərəfindən verilmiş elektron şifrə-parol kodunun hər zaman özündə olduğunu, hesabatların özü tərəfindən tərtib olunaraq internet vasitəsi ilə vergi orqanına göndərildiyini qeyd edib. Baş vermiş vergi cinayətlərində adları çəkilən müəssisələrin işçilərinin heç bir günahının olmadığını, MMC-lər adından rəsmiləşdirilən alqı-satqı, həmçinin iş və xidmətlər göstərilməsi barədə əməliyyatların və maliyyə-mühasibat məsələlərinin onun tərəfindən icra edildiyi təsdiqlənib.

E.Şahgəldiyevin təqsirliliyi öz etirafından başqa, çoxsaylı şahid ifadələri və digər təkzibolunmaz dəlillərlə sübuta yetirilib. Beləliklə, sahibkar törətdiyi vergi cinayətlərinə görə, Şirvan Şəhər Məhkəməsinin hökmü ilə 1 il 9 ay müddətinə azadlıqdan məhrum edilib.

**ELBRUS**

beynəlxalq panoram

# Qazaxıstanda subaylıq vergisi tətbiq oluna bilər

*Ölkənin demoqrafları bununla Qazaxıstanda demoqrafik vəziyyəti yaxşılaşdırmaq üçün nikahda olmayanların dövlətə vergi ödəməyə məcbur olunmasını təklif ediblər.*



Ekspertlər isə bu vergini qeyri-qanuni adlandırıblar. Hazırda Qazaxıstanda 30-40 yaş arasında 200 mindən çox subay kişi var. Buna təsir göstərmək üçün Qazaxıstan demoqrafları SSRİ dövründə qüvvədə olan subaylıq vergisinə qayıtmağı təklif ediblər. O vaxt ailə sahibi olmayan sovet vətəndaşı gəlirinin 6%-ni vergi şəklində dövlətin xəzinəsinə ödəyirdi. Demoqrafların fikrincə, vergiqoyma bütün subay kişi və qadınların, uşağı olmayanların ailə qurmasını stimullaşdıracaq, dövlət isə bundan əlavə gəlir mənbəyi əldə edəcək.

# Əcnəbi sürücülər yollardan istifadəyə görə vergi ödəyəcəklər

Almaniyanın Nəqliyyat Nazirliyi bəyan edib ki, 2016-cı ildən əcnəbi sürücülər ölkənin yollarından istifadəyə görə yol haqqını ödəməli olacaqlar. Avropa İttifaqı ölkələr arasında ayrı-seçkiliyi tənqid etsə də, belə görünür ki, Almaniya əcnəbilər üçün nəqliyyat vergisi tətbiq etməkdə qərarlıdır. Ölkə hökuməti bu yolla infrastrukturda yaranmış nöqsanların aradan qaldırılacağına, xəzinəyə on milyonlarla avro daxil olacağına ümid bəsləyir.

# Fransada bitkoinlərlə aparılan əməliyyatdan vergi tutulacaq

*Elektron kriptovalyuta olan bitkoin Fransada rəsmi tanınmasa da, onunla aparılan əməliyyatlardan əldə edilən gəlirlər vergiyə cəlb olunacaq.*

İqtisadiyyat və Maliyyə Nazirliyi bitkoin-valyutadan istifadə edənlərin öz gəlirlərini vergi orqanlarında bəyan etmələrinin vacibliyini bildirmişdir. Fransanın tənzimləmə orqanının bu qərarı ABŞ Vergi İdarəsinin (Internal Revenue Service) səhmlər və digər qeyri-maddi aktivlər kimi, bitkoinin də əmlaka aid edilməsi barədə qərarına bənzəyir. Bununla belə, fərq də var. Məsələn, ABŞ-dan fərqli olaraq, Fransada az məbləğdə qazanc əldə edənlər və ya bu əməliyyatlarla qeyri-müntəzəm məşğul olanlar vergi ödəməyəcəklər.

Fransa hökumətinin nümayəndəsi bildirib ki, bütün vergi ödəyiciləri öz gəlirlərini, o cümlədən xaricdən daxilolmaları bəyan etməyə borcludurlar. Bu halda dövlət orqanlarının kiçik məbləğdə və qeyri-müntəzəm satışlardan, məsələn, təsadüfi satışlardan əldə olunan gəlirlərə münasibətdə müəyyən tolerantlığı var.



Xarici ölkələrin təcrübəsi:

# Türkiyə Respublikasının vergi sistemi: *əlavə dəyər vergisi*

Ölkədə mal və xidmətlərin istehsalı və təqdim edilməsi prosesinin bütün mərhələləri ƏDV-yə cəlb olunur.

***Türkiyə ərazisində həyata keçirilən aşağıdakı əməliyyatlar vergitutma obyektidir:***

♦ kommersiya, sənaye, kənd təsərrüfatı və peşə fəaliyyəti zamanı mal və xidmətlərin təqdim edilməsi;

♦ bütün növ mal və xidmətlərin idxalı.

***Aşağıdakı əməliyyatlar ƏDV-yə cəlb edilmir:***

♦ müəssisənin təqdim edilməsi (müəssisənin əldə edilməsi və hüquqi formasının dəyişdirilməsi);

♦ xam neft, benzin və digər neft məhsullarının boru kəməri vasitəsilə nəqli;

♦ Türkiyə fond birjalarında emal edilməmiş qızıl, xarici valyuta, obliqasiyalar, markalar və digər kapital bazarı alətlərinin təqdim edilməsi;

♦ bank və sığorta əməliyyatları vergisinin obyekti olan əməliyyatlar;

♦ biznes fəaliyyətinə aid edilməyən daşınmaz əmlakın icarəyə verilməsi;

♦ rezident müəssisələr tərəfindən onlara məxsus daşınmaz əmlakın satışı. Əgər bu satışdan əldə olunan gəlir kapitala yönəldilirsə;

♦ tranzit daşınma və gömrük anbarında, həmçinin azad zonalarda, müvəqqəti saxlanılmada və gömrük ərazisində xüsusi rejim altında olan mal və xidmətlərin təqdim edilməsi;

♦ əlillərin təhsil, peşə və gündəlik həyat fəaliyyətlərində istifadə olunan alətlər, avadanlıqlar və xüsusi kompüter proqramlarının təqdim edilməsi.

*ƏDV-nin standart dərəcəsi 18%-dir. «0» (sıfır) dərəcə aşağıdakı hallarda tətbiq olunur:*

- malların ixracı;
- xaricdə xidmətlərin göstərilməsi;
- ixracatçılar üçün malların istehsalı;
- gəmi, təyyarə və dəmir yolu nəqliyyatı vasitələrinin təqdim edilməsi və onların istehsalı ilə bağlı xidmətlərin göstərilməsi;
- dəniz nəqliyyatı vasitələrinin inşa edilməsi üçün onları inşa edən vergi ödəyicilərinə mal və xidmətlərin təqdim edilməsi;
- su və hava limanlarında gəmilərə və təyyarələrə xidmətlərin göstərilməsi;
- beynəlxalq nəqliyyat xidmətlərinin göstərilməsi;
- karbohidrogen mənbələrinin kəşfiyyatı və istismarı ilə məşğul olan şəxslərə mal və xidmətlərin təqdim edilməsi;
- investisiya sənədinə malik olan vergi ödəyicilərinə maşın və avadanlıqların təqdim edilməsi - bu şərtlə ki, maşın və avadanlıq həmin investisiyanın tərkib hissəsini təşkil etsin;
- su və hava limanlarının inşa edilməsi, təmiri və saxlanılması üçün malların təqdim edilməsi və inşa xidmətlərinin göstərilməsi;
- ixrac rejimi altında malların daşınmasını həyata keçirən yük maşınlarına yanacağın təqdim edilməsi - bu şərtlə ki, yanacaq Nazirlər Şurası tərəfindən təyin edilmiş sərhədlərdə təqdim olunur və yük maşınları ölkəni tərk edir.

*Aşağıdakı mal və xidmətlər azaldılmış 8% dərəcə ilə ƏDV-yə cəlb olunur:*

Əsas qida məhsulları; nəzarət-kassa aparatları; kino, teatr, opera və balet biletləri; özəl təhsil xidmətləri; dəftərxana ləvazimatları; kitablar və oxşar nəşrlər; tibbi mallar və xidmətlər; tekstil məhsulları, xüsusi tekstil istehsalı xidmətləri; sığınacaq xidmətləri; turizm xidmətləri; ketrinq xidmətləri; kənd təsərrüfatı texnikası; kafe, şirniyyat evləri, restoran və digər oxşar sahələr üzrə xidmətlər (alkoqollu içkilər, birinci sinif restoranlarda, üç və ya daha çox ulduzlu otellərin restoranlarında göstərilən xidmətlər istisna olmaqla); xüsusi geyim xidmətləri; otel, mehmanxana və digər oxşar müəssisələrin yaşayış xidmətləri (səyahət agentliklərinin göstərdiyi xidmətlər daxil olmaqla); təcili tibbi yardım xidməti; stomatoloji ləvazimatlar; çirkab sularla bağlı bələdiyyə xidmətləri; sahəsi 150 kv.m.-dək olan mənzillərin təqdim edilməsi (bu şərtlə ki, həmin mənzilə görə daşınmaz əmlak vergisi 1 kv.m. üçün 500-1000 TL (≈230-460 ABŞ dolları) arasında olsun).

*Aşağıdakı mal və xidmətlər azaldılmış 1% dərəcə ilə ƏDV-yə cəlb olunur:*

Xüsusi kənd təsərrüfatı məhsulları; qəzet və jurnallar; istifadə edilmiş avtomobillər; bəzi ölkələrdən idxal edilmiş xüsusi növ dəri; əlillər üçün velosipedlər və nəqliyyat vasitələri; insan və heyvan qanı və qan komponentləri; dəfn xidmətləri; su, hava və dəmir yolu daşımasında istifadə olunması üçün nəqliyyat vasitələrinin və ya belə nəqliyyat vasitələrinin inşası və istehsalı üçün mal və xidmətlərin tam və ya qismən bu cür nəqliyyat vasitələrinin satışı və ya icarəsi ilə məşğul olan vergi ödəyicilərinə təqdim edilməsi; buxar qazanları, sentrifuqalar, gəmi buruğu və qaldırıcı kranlar, liftlər, eskalatorlar, konveyerlər, dəmir yolu vaqonları (funikulyor, tramvay), bəzi kənd təsərrüfatı texnikaları, bəzi tekstil avadanlıqları və elektrik mühərrik və generatorlarının maliyyə lizinqi və 28 noyabr 2011-ci il tarixdən etibarən ət, ev quşları məhsulları və bulqur satışı.

Türkiyədə ƏDV daxilolmalarının illər üzrə dinamikası
mlrd. ABŞ dolları ilə




*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord




**Yuxarıdan aşağı:**

1.Respublikamızın Şamaxı rayonunda kənd; 2.İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanının adı (1919-1946); 3.Rusiya Federasiyasının Omsk vilayətindən keçən çay; 4.«Şousenkdən qaçış» filmində baş qəhrəmanın yaxın dostu rolunu oynamış aktyor; 5.İdmançıların və ya artistlərin müəyyən marşrut üzrə qastrol səfərləri; 6.Hər hansı hekayənin şəkillər vasitəsilə təsviri; 9.Stolüstü oyun; 13.Türk və altay mifologiyalarında Baykal gölündə və ya yer altındakı böyük dənizdə yaşadığına inanılan qorxunc ölüm balığı; 15.Antik dövrdən başlayaraq müəyyən mövzuda yazılan elmi əsərlər; 16.«O olmasın, bu olsun» musiqili komediyasının müəllifinin adı; 17.Atlantik okeanında ada; 18.Gerçək görüntünün rəqəmli surətini yaratmaq üçün ofis texnikası; 20.Komandalar arasında oval bir topla oynanılan komanda oyunu, «Amerika futbolu» da adlandırılır; 21.Yaratdığı avtoportretlərlə tanınan meksikalı rəssam (1907-1954), kubist rəssam Dieqo Rivyeranın həyat yoldaşı.

**Soldan sağa:**

1.«Komediyanın atası» kimi tanınan qədim yunan şairi, dramaturq-komedioqraf, klassik yunan komediyasının banisi; 5.Yeganə, nadir; 7.«Cavad xan» bədii filminin baş qəhrəmanının obrazını canlandıran aktyorun adı; 8.Halogen qrupuna aid kimyəvi element; 10.Balqabaqkimilər fəsiləsinə aid bitki cinsi; 11.Türkiyədə oriyental tipli xalq musiqisi janrı; 12.Azərbaycan dramaturqu C.Cabbarlının pyesi; 14.Qədim zadəgan nəslinə mənsub italyan şairi, italyan ədəbi dilinin banisi (1265-1321). «İlahi komediya»nın müəllifi; 19.Respublikamızda rus dilində nəşr olunan ictimai-siyasi qəzet; 21.Fransa, Belçika, Lüksemburq və İsveçrənin avro ilə yanaşı pul vahidi; 22.Ənənəvi Asiya sisteminə əsaslanan fiziki məşqlərin sırası; 23.Cənubi Asiyada dövlət; 24.İtaliyanın ictimai-hüquqi teleradio şirkəti; 25.Dəftərxana ləvazimatı.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Tester; 2.Riksdaq; 3.Artur *(Konan Doyl)*; 4.Çenbil; 5.Sufle; 6.Marşal; 9.Bonn; 13.Vern *(Jül)*; 15.Qrafika; 16.Sekans; 17.Korvet; 18.Toster; 20.Brams *(Yohans)*; 21.Prado.
**Soldan sağa:** 1.Türyançay; 5.Som; 7.Sekstant; 8.Efir; 10.Eldar *(Mansurov)*; 11.İpoteka; 12.Aqava; 14.Oneqa; 19.Embarqo; 21.Piano; 22.Aqat; 23.Evkalipt; 24.SOS; 25.İxtiozavr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

idman

# «Tour d'Azerbaidjan-2014» uğurla başa çatdı

## Yarış Avropa Oyunlarına hazırlıq kimi qiymətləndirilir

*Mayın 7-dən 11-dək Azərbaycanda Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2014» beynəlxalq velosiped turu keçirildi. Veloturda dünyanın bütün qitələrini və 22 ölkəni təmsil edən 25 komanda iştirak edirdi. İştirakçılar sırasında kontinental və milli komandalarla yanaşı, «MTN-Qhubeka» (CAR), «Caja Rural-Seguros RGA» (İspaniya), «Neri Sottoli», «Androni Giocattoli» (İtaliya), «Drapac Professional Cycling» (Avstraliya), «Team Novo Nordisk» (ABŞ), «Rusvelo» (Rusiya) və «CCC Polsat-Polkowice» (Polşa) kimi Pro-Kontinental lisenziyalı, dünyada yüksək nüfuza malik səkkiz komanda da var idi.*




***Beş mərhələdən ibarət «Tour d'Azerbaidjan» beynəlxalq veloturu Bakı və Sumqayıt şəhərləri, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki rayonlarının ərazilərindən keçərək 840 km-ə yaxın məsafəni əhatə edirdi.***

### 1-ci mərhələ

Turun ilk mərhələsi Bakıdakı Dövlət Bayrağı Meydanından start götürüb Sumqayıt şəhərindəki Bayraq Meydanında başa çatdı. Bu mərhələnin qalibi İtaliyanın «Androni Giocattoli» klubunun üzvü, hollandiyalı Kenni van Hummel oldu. O, 154 kilometr məsafəni 3 saat 46 dəqiqə 38 saniyəyə qət edərək, növbəti mərhələdə liderin daşıdığı göy köynəklə çıxış etmək imkanı qazandı. Ən yaxşı sprinterə verilən yaşıl köynək də bu mərhələdə ona nəsib oldu.

Ukraynanın «Kolss Cyclind Team» komandasının velosipedçisi Vitali Buts finişə ikinci çataraq ən yaxşı dağ velosipedçisi kimi qırmızı köynəyə sahib oldu. İspaniyanın «Caja Rural Seguros» komandasında çıxış edən italiyalı David Viqano üçüncü, «Synergy Baku» komandasının üzvü Maksim Averin isə dördüncü oldu. Bu mərhələdə İsveçin «Development Team Giant- Shimano» komandasının üzvü Aleks Frey ən yaxşı gənc velosipedçi hesab olunaraq yarışı ağ-bənövşəyi köynəklə davam etdirdi.

***Kenni van Hummel, 1-ci mərhələnin qalibi:*** «Azərbaycana gəlməzdən əvvəl məni ölkənizin necə olması düşündürürdü. Burada hər şeyin əla olduğunu gözlərimlə gördüm. Yollarınız çox gözəldir. Fikrimcə, bu gedişlə gələcəkdə yarışın nüfuzu daha da artacaq...»

***Karlos Sastre, «Tour d'Azerbaidjan-2014»ün fəxri qonağı, «Tour de France 2008»in qalibi:*** «Bu yarışın böyük potensialı var. Bütün dünya Azərbaycan turunu izləyir. Hər şey çox yüksək səviyyədədir. Buradakı şərait əladır. İdmançılar və qonaqlar üçün yaradılan imkanlar yüksək təəssürat yaradır».

### 2-ci mərhələ

«Tour d'Azerbaidjan-2014» veloyürüşünün ikinci mərhələsində iştirakçılar Bakı şəhərində Şıx çimərliyi ilə üzbəüz ərazidəki Velosiped Parkından start götürərək «Bakı - Abşeron - Qobustan - Şamaxı - İsmayıllı» marşrutu üzrə 187 km məsafə qət etdilər. Finiş xəttini 4 saat 55 dəqiqə 2 saniyə nəticə ilə Sloveniyanın «Adria Mobil» komandasının üzvü Primoz Roqliç birinci keçdi. Avstraliyalı Uilyam Klark («Drapak Professional Cycling») ikinci, italiyalı Rafael Andriato («Neri Sottoli») isə 3-cü oldu. Bu mərhələ gərgin idman mübarizəsi şəraitində keçdi - liderlə ikinci yerə çıxmış idmançı arasında cəmi 1 saniyə, üçüncü yerə çıxmış idmançı ilə 9 saniyə fərq oldu. Azərbaycan təmsilçisi «Synergy Baku» komandasının üzvlərindən ən yaxşı nəticəyə Aleksandr Surutkoviç nail oldu - o, finişə liderdən 15 saniyə gec çatdı.

İkinci mərhələdə avstraliyalı Uilyam Klark ümumi hesabda liderliyi ələ alaraq göy köynəyə sahib oldu. P.Roqliç ən yaxşı dağ yürüşçüsü kimi qırmızı, sloveniyalı Matey Muqerli isə («Adria Mobil») ən yaxşı sprinter kimi yaşıl köynəyə layiq görüldü. Ən yaxşı gənc velosipedçi üçün nəzərdə tutulan ağ-bənövşəyi köynək isveçli Fredrik Ludviqssona («Development Team Giant-Şimano») verildi.

***Primoz Roqliç, Sloveniya idmançısı:*** «Dağ finişini arxada qoyduqdan sonra qalib gələcəyimə əminlik yaranmışdı. İdmançı karyeramda qazandığım bu ilk qələbə mənim üçün böyük əhəmiyyət kəsb edir».

***Uilyam Klark, Avstraliya idmançısı:*** «İstərdim ki, liderin daşıdığı göy köynəyi özümdə mümkün qədər çox saxlayım. Azərbaycana ilk dəfə gəlirəm. Yarış əla təşkil olunub. Burada olmaqdan zövq alıram».

***Ronald Hofer, Avropa Velosipedçilər İttifaqının fəxri baş katibi:*** «Mən Azərbaycana ilk dəfə gəlirəm. Yarış çox əla təşkil olunub. Yarışın kateqoriyası 2.1-dir, amma gələcəkdə daha da yüksələ bilər. Hotellər əla, yollarda təhlükəsizlik çox gözəldir. Bu yaxınlarda Türkiyədə belə bir yarışda iştirak edirdim. Orada da yarış çox gözəl təşkil edilmişdi. Türkiyədə bu turnirin 50 illik tarixi var, Azərbaycan isə buna son iki ildə nail olub».



### 3-cü mərhələ

Qəbələ-Oğuz-Şəki-Oğuz-Qəbələ istiqamətində 180 km məsafəni əhatə edən bu mərhələdə finiş xəttinə CAR-ın «MTN Qhubeka» komandasının əlcəzairli velosipedçisi Yusif Reqiqi hamıdan tez - 4 saat 14 dəqiqə 20 saniyəyə çatdı. Sloveniyalı Matey Mureli («Adria Mobil») ikinci, isveçli Kristian Yensen («Development Team Guant-Şhimano») üçüncü yeri tutdu. «Synergy Baku» komandasının üzvlərindən ən yaxşı nəticəni Markus Eybeger göstərdi - finişə liderdən cəmi 3 saniyə gec çatdı.

***Camoloddin Abdulcaparov, «Tour d'Azerbaidjan-2014»ün fəxri qonağı, 90-cı illərin əvvəllərində «Tour de France» yarışında 9 dəfə mərhələ qalibi, 3 dəfə ən yaxşı sprinter:*** «Burada hər şey gözəldir. Azərbaycanda ilk dəfə olsam da, bu ölkə məni valeh edir. Velotur olduqca gözəl təşkil olunub. Elə bunun nəticəsidir ki, yarışda dünyanın ən yaxşı komandaları iştirak edir».

### 4-cü mərhələ

Mayın 10-da velosipedçilər Qəbələdən start götürüb, İsmayıllıdan keçməklə Şamaxıya yürüş etdilər. Onlar 115 km məsafə qət edərək finiş xəttini dəniz səviyyəsindən təxminən 1450 metr hündürlükdə yerləşən Pirqulu rəsədxanasının yaxınlığında, Vergilər Nazirliyinin Tədris Mərkəzinin qarşısında keçdilər. Bu dəfə də qalib CAR-ın «MTN Qhubeka» komandasının velosipedçisi oldu - 2007-ci il «Tour de France» veloyürüşünün 7-ci mərhələsinin qalibi, almaniyalı Linus Gerdemann finişə 2 saat 59 dəqiqə 4 saniyə nəticə ilə hamıdan tez çatdı. O, həm də mərhələnin ən yaxşı dağ velosipedçisi kimi qırmızı maykaya layiq görüldü.

Rusiyanın «RusVelo» komandasının üzvü İlnur Zakarin finişi ikinci, Ukraynanın «Kolss» komandasının velosipedçisi Vitali Buts isə üçüncü keçdi. Zakarin ümumi təsnifatda liderliyə yüksələrək göy maykaya layiq görüldü. Ukraynalı velosipedçi isə 4-cü mərhələnin ən yaxşı sprinteri kimi yaşıl maykanı geyinmək hüququ qazandı.

***Linus Gerdeman, 4-cü mərhələnin qalibi:*** «Mövsümdə ilk qələbəmi qazandığım üçün xoşbəxtəm. «Tour d'Azerbaidjan»ı çox yüksək qiymətləndirirəm və bu qələbənin mənim gələcək karyeramda mühüm yeri olacağına əminəm».

### 5-ci mərhələ

«Tour d'Azerbaidjan-2014» beynəlxalq velosiped turunda yekun mərhələyə mayın 11-də Bakıda Azadlıq meydanından start verildi. Velosipedçilər Nobel prospekti - Zığ şosesi - Qala - Şüvəlan - Buzovna - Zuğulba - Nardaran - Zuğulba - Buzovna - Heydər Əliyev prospekti - Azadlıq meydanı marşrutu üzrə hərəkət edərək İçəri şəhər və paytaxtımızın mərkəzi küçələri ilə 6 dəfə dövrə vurmaqla finiş xəttini Azadlıq meydanında keçdilər.

Sonuncu mərhələnin qalibi adına Fransanın «Team La Pomme Marseille 13» komandasının üzvü Jüstin Jül layiq görüldü. O, 202 km məsafəni 4 saat 41 dəqiqə 7 saniyəyə qət etdi. 3-cü mərhələnin qalibi Yusif Reqiqi («MTN-Qhubeka», CAR) bu dəfə finiş xəttini ikinci keçdi. İlk «üçlüyü» isə Adrian Honkiş («CCC Polsat Polkowice», Polşa) tamamladı.

Yarışın yekun sıralanmasına əsasən, göy köynək İlnur Zakarinə («RusVelo», Rusiya), qırmızı köynək (ən yaxşı dağ yürüşçüsü) Linus Gerdemanna («MTN Qhubeka», CAR), yaşıl köynək (ən yaxşı sprinter) Vitali Butsa («Kolss», Ukrayna), ağ-bənövşəyi köynək (ən yaxşı gənc velosipedçi) Pobert Pauerə (Avstraliya milli komandası), göy-qırmızı-yaşıl, alov əksi olan köynək (ən yaxşı azərbaycanlı velosipedçi) - Azərbaycanın U-23 milli komandasının üzvü Samir Cəbrayılova («Synergy Baku», Azərbaycan) təqdim edildi.

Komanda hesabında birinci yerə Ukraynanı təmsil edən «Kolss» layiq görüldü. Azərbaycanın «Synergy Baku» komandası isə 25 komanda arasında 10-cu oldu.

***Samir Cəbrayılov, «Synergy Baku» komandasının gənc üzvü:*** «Azərbaycan velosipedçiləri arasında ən yaxşı nəticə göstərdiyimə görə çox şadam. Lakin mən yalnız ən yaxşı azərbaycanlı idmançı köynəyini deyil, ümumi təsnifat üzrə qalibin köynəyini geyməyi arzulayıram. Gələcəkdə bunun naminə əlimdən gələni edəcəyəm. Ümidvaram ki, iki ildən sonra mavi köynək mənim əynimdə olacaq»

### Azərbaycanda velosiped idmanının gələcəyi parlaqdır...

Yarışdan sonra turnirin yekunu ilə bağlı mətbuat konfransı keçirildi. ***Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) vitse-prezidenti, «Tour d'Azerbaidjan-2014» beynəlxalq veloyürüşünün Təşkilat Komitəsinin sədri Sahib Ələkbərov*** federasiya adından hər bir komandaya, fəxri qonaqlara, iştirakçılara və mətbuat nümayəndələrinə dərin minnətdarlığını bildirərək yarışın uğurla başa çatdığını bildirdi: «Veloyürüşü itkisiz, heç bir zədə olmadan başa vurduq. Bunun üçün köməyi olan, zəhməti keçən hər kəsə öz təşəkkürümü bildirirəm. Azərbaycanda bütün idman növlərinin inkişafı üçün hər cür şərait mövcuddur və bütövlükdə idmana dövlətin yüksək dəstəyi var».

Sahib Ələkbərov velosiped idmanı tariximizdə ilkə imza atıldığını qeyd etdi. Onun sözlərinə görə, turun son mərhələsinin 1,5 saatının «Eurosport» kanalı vasitəsi ilə canlı yayımlanması və bütün dünyanın bunu izləməsi birinci dəfə məhz «Tour d`Azerbaidjan-2014»də gerçəkləşdirilib.

Qeyd etmək lazımdır ki, «Eurosport» televiziya kanalı ilə əldə olunmuş razılığa əsasən, «Tour d`Azerbaidjan-2014» veloturunun hər mərhələsindən sonra velosiped həvəskarları dünyanın hər bir yerində gərgin mübarizənin 26 dəqiqəlik geniş icmalını bu kanal vasitəsilə izləyə bildilər. Beşinci mərhələnin son 1,5 saatı isə həm «Eurosport», həm də «İdman Azərbaycan» televiziya kanalları ilə canlı olaraq yayımlandı. Bundan başqa, xarici ölkələrdən gəlmiş çoxsaylı idman jurnalistləri də turu geniş işıqlandırdılar.

Sahib Ələkbərov ənənəvi yarışın ildən-ilə inkişaf edəcəyini və daha yaxşı təşkil edilməsi üçün bütün imkanlardan istifadə olunacağını vurğuladı. Bildirdi ki, Azərbaycanda artıq yeni gənc velosipedçi nəsli yetişməkdədir: «Bu yarışda Samir Cəbrayılov sübut etdi ki, Azərbaycanda velosiped idmanının gələcəyi parlaqdır».

***Avropa Velosiped İttifaqının vitse-prezidenti Aleksandr Qusyatnikov:*** «Tour d`Azerbaidjan-2014»ü Avropa Oyunlarına bir hazırlıq kimi qiymətləndirmək olar. Biz bunun şahidi olduq».

Beş mərhələdən ibarət veloyürüşü canlı izləyən qurum rəsmisi təşkilatçılıqdan çox razı qaldığını söylədi. Bildirdi ki, Azərbaycan Velosiped İdmanı Federasiyası bununla 2015-ci ildə təşkil olunacaq ilk Avropa Oyunlarına hazır olduğunu bir daha nümayiş etdirib: «Əmin olduq ki, Bakı həmin böyük yarışa hazırdır. Avropa Velosiped İttifaqı Azərbaycanda bu idman növünün inkişafından məmnundur və gələcəkdə də hər cür dəstəyi verməyə hazırdır. Azərbaycanda idmana ölkə başçısı tərəfindən də böyük dəstək var. Tikilmiş çoxsaylı idman kompleksləri buna əyani sübutdur. Cəmi iki yaşı olan velotur gənc nəslin özünü sübut etməsi üçün əla bir şansdır».

Qeyd edilməlidir ki, 2015-ci ilin Avropa Oyunlarında iştirak edəcək velosipedçilərin də «Tour d`Azerbaidjan»ın son, Bakı mərhələsinin marşrutunun Avropa Oyunlarının təşkilat komitəsi ilə razılaşdırılmış şəhərdaxili hissəsi ilə hərəkət edəcəkləri nəzərdə tutulur. Ona görə də builki yarış həm də Avropa Oyunlarına hazırlıq kimi qiymətləndirilmişdir. «Tour d`Azerbaidjan-2014»ün yekun mərhələsi 2015-ci il Avropa Oyunlarının təşkilat komitəsinin üzvləri tərəfindən də Azadlıq meydanında canlı izlənilmişdir.

